22_27 IYUl-QARA.qxd 7/4/2024 10:42 PM Page 1


# UNİKAL

№23 (2205) 5 iyul 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Azərbaycan dünya nəhəngi ilə yeni müttəfiqlik mərhələsində




Səh. 9

## Məleykə Abbaszadədən "yaylım atəşi"

*Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ibtidai sinifdə verilən bir sıra anlayışların başadüşülməz olduğunu deyib. Bu barədə o, VII ADA 2024 Beynəlxalq Təhsil Konfransında çıxışı zamanı bildirib. DİM rəhbəri əlavə edib ki, nəinki valideynlər heç bəzi müəllimlər üçün də dərsliklərdəki bu anlayışlar başa düşülmür. O, bildirib ki, təhsil sisteminə problemlər hər zaman kənardan gəlir. Məleykə Abbaszadə bu kimi uyğunsuzluqların aradan qaldırılmasını da tövsiyə edib. Xatırladaq ki, Məleykə Abbaszadə hələ Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri olarkən orta məktəb dərslikləri ilə bağlı bir sıra iradlar səsləndirib...*

Səh. 8

## "Ölkəmizdə bazara çıxış o qədər də sərbəst deyil"



*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal"a müsahibə verib. O, dizel yanacağının qiymətindəki artımın kənd təsərrüfatına necə təsir edəcəyindən, mövsümi meyvələrin baha olmasının səbəblərindən, bələdiyyələrdə hansı dəyişikliyin olacağından və sənədsiz evlərin nə zaman sənədləşdiriləcəyindən...*

Səh. 4

## Fazil Mustafaya qarşı sui-qəsdlə bağlı statusu bəyənən şəxs həbs edilib



*Bakıda narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Rza Kərimovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. "Unikal"ın əldə etdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə təqsirləndirilən şəxs R. Kərimov ifadə verib. O ifadəsi zamanı narkotik vasitələrdən istifadə etmədiyini...*

Səh. 7

## Hamılıqla bir ideologiya uğrunda!



*"Azərbaycanın istər daxilində, istərsə də xaricində Azərbaycançılıq ideyası dövlət tərəfindən kifayət qədər təbliğ olunur. Bu ideologiyanın formalaşması, inkişafı və şaxələnməsi vacib məsələdir. Bunu dövlət başçısı, cənab İlham Əliyev də öz çıxışlarında dəfələrlə vurğulamışdır".*

Səh. 11

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:44 PM Page 2



# Nura telekanalları "hədəf aldı": "Olmadığım kimi təqdim olunmaqdan bezmişəm"



***"Verlişlərə, müsahibələrə getmək istəməməyim səbəbini açıqlamaq istəyirəm. İndiyə kimi (hətta youtube verilişləri) bütün müsahibələrimi montajda kəsib-doğrayıb yayımlayıblar.Son getdiyim "Zarafat bir yana" proqramında hər suala ətraflı, izahla cavab verməyimə baxmayaraq hamısı kəsilib".***

"Unikal" lent.az-a istinadən bildirir ki, bu fikirləri öz sosial şəbəkə hesabında müğənni Nura Suri paylaşıb. O müsahibə verərkən fikirlərinin yarımçıq təqdim olunmasından gileylənib. "Klassik musiqidən (Vivaldı, Paganini və s.) danışıqlarım ümumiyyətlə yoxdur. Çox fərqli, çoxunun düşünə bilmədiklərini gənclərlə bölüşmüşdüm. Çoxu yayımlanmadı. Bu səbəbdən facebookda yazmağa davam edəcəyəm. Ara-sıra videolar da paylaşacam. Mənim dünyaya baxışım fərqlidir. Müsahibələrim isə kəsilib-doğranılır, haqqımda başqa bir fikir formalaşdırılır. Buna izin verə bilmərəm. Məni olduğum kimi az adam tanıyır. Olmadığım kimi isə təqdim olunmaqdan bezmişəm. Mənim hamı tərəfindən bəyənilmək, sevilmək, başa düşülmək kimi istəyim də yoxdur heç. Amma olmadığım kimi də tanınmaq istəmirəm. Hə, bir də ki, bahalaşma haqqında yazdığım statusdan sonra fərqli müsahibələrim montaj olunuraq sosial şəbəkələrdə paylaşılır. Mən avtomobilimə 95 benzin vururam və onun da qiyməti düşüb. Avtobus və metrodan istifadə etmirəm. Yəni ki, başqalarına görə özümü həmişə oda atıram. Yazdığım statuslar mənə ancaq problemlər yaradır. Bunu bilin. Trollar tərəfindən bütün səhifələrdə təhqirlərə məruz qalıram, tədbirlərdən kənar qalıram və daha çox problemlər yaşayıram (birbir sadalamaq istəmirəm). Hamını anlamağa çalışıram, amma görürəm ki , insanlara yaxşılıq yoxdur. Ancaq haqqımda layiq olmadığım söhbətlər danışılır. Məni tanımayan, ünsiyyətdə olmadıqlarım da danışır hətta. Səbəbi isə rahat şəkildə hər hansı bir məsələyə fikir bildirə bilməyimdir, yaltaq olmamağımdır, səmimiliyimdir. Bu xüsusiyyətlərimə görə nifrət ediləsi biri olmuşam",- deyə o bildirib.

# Damla İranda hicabsız konsert verdi, zal bağlandı

***Tanınmış müğənni Damlanın (Məsumə Məmmədova) Güney Azərbaycanın Ərdəbil şəhərində konsert verdiyi salon möhürlənib.***

Bu barədə İran mediası məlumat yayıb. Bildirilib ki, Damlanın Ərdəbildəki şadlıq saraylarından birində məcburi hicab qaydalarına riayət etmədən mahnı ifa etdiyi görüntülər yayılıb. Bu da İranda müxtəlif siyasi dairələrin etirazına səbəb olub. Ərdəbil prokurorluğu bunu "qanunsuz mərasim keçirmək və qaydaları pozmaq"la ələqələndirib.



Damlanın prodüseri müğənninin İranın Ərdəbil şəhərində konsert verdiyi salonun yerli prokurorluq tərəfindən möhürlənməsi ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. Bu barədə Oxu.az-a danışan Şamil İbrahimov bildirib ki, müğənni Ərdəbilə konsert üçün yox, toy məclisində iştirak etmək üçün gedib: "Ərdəbilə konsert verməyə getməmişdik. Açıq havada toy mərasimi keçirilirdi. Orada iştirak etdik. Damla xanım hicabda olub. Hava Limanından çıxdıqdan sonra hicabsız olub. Yayılan məlumatlar yanlışdır. Biz orada heç bir problem yaşamadıq. Qayda pozuntusuna da yol verilməyib".

Ş.İbrahimov hazırda Məsumə Məmmədovanın Bakıda olduğunu vurğulayıb: "Damla xanım Bakıdadır. Hər şey qaydasındadır".

# Qısa paltar geyinən Türkanın çətin anları



***Müğənni Türkan Vəlizadənin qısa geyimi ona çətin anlar yaşadıb.***

Avtomobildə gedən sənətçini elə köməkçisi videoya çəkib. Qısa paltarının nümayiş etdirilməsindən narahat olan Türkan oturuşuna çəki-düzən verib.

Utanan müğənnin bu görüntüsü sosial şəbəkələrdə müzakirələr səbəb olub.

# İradə İbrahimovadan qızı ilə bağlı paylaşım



***Müğənni İradə İbrahimova qızı ilə bağlı paylaşım edib.***

Müğənni ailəvi fotolarını paylaşaraq qızı İpəyin Robert Kollecinə qəbul olunduğunu bildirib. O, sevincini izləyiciləri ilə bölüşüb: "O qədər xoşbəxtəm, o qədər xoşbəxtəm ki, bu sevincin hamısı mənə çoxdur, sizə də toxunsun istədim. İpək illərdir çəkdiyi əməyin qarşılığını aldı, xəyallarını gerçəkləşdirdi. 160 illik tarixə sahib olan Robert Kollecinə qəbul olundu.

Qızım, sənə halal olsun. Çətin olanın öhdəsindən gəldin. Ağlını, tərbiyəni ən gözəl aksesuarın etdin, yanından ayırmadın. Tam da sözləşdiyimiz kimi sürüdən ayrılmağı bacardın. Oxumağı, öyrənməyi kənara qoymadın. Tam da bu gün alın tərinlə, öz gücünlə çalışdığın günlərin meyvələrini dərirsən. Qismətini yaşa, qızım. Zaman-zaman uşaqlara qarşı çox sərt davrandığımı söyləyən atası, məncə doğru yoldayam. Sən yenə də onları ən çox başa düşən, ən çox əyləndirən, ən zəif nöqtələri ol. Mənim üçün dedikləri "anamız çox sərtdir" sözləri ilə razıyam. Gün gələr başa düşərlər".

# Nanə bu kanalda çalışacaq



***"Xəzər" TV artıq indidən yeni mövsüm hazırlıqlarına başlayıb. Kanalın direktoru Murad Dadaşov digər kanalların bir çox tanınmış simalarını da kanala transfer etmək üçün çalışmalara başlayıb.***

"Unikal" yenisabah.az-a istinadən xəbər verir ki, belə görüşlərdən biri də ATV kanalının tanınmış aparıcısı Nanə Ağamalıyeva ilə olub.

Məlumata görə, artıq tərəflər arasında ilkin razılaşma əldə olunub.

# Elnarə Xəlilova düşmənlərini rinqə çağırıb



***İdman.Biz TV-nin "Ulduzlu İdman" verilişinin növbəti qonağı tanınmış müğənni Elnarə Xəlilova olub. Məlum olub ki, o, kikboksinqlə məşğul olur.***

Verilişin aparıcısı Zümrüd Bədəlova ilə söhbətində Elnarə Xəlilova idmana olan həvəsindən danışıb, bacarığını nümayiş etdirib. Verilişin xüsusi qonağı Azərbaycan Kikboksinq Federasiyasının qadın kikboksinqi üzrə böyük məşqçisi, çox pozitiv idmançı Mehman Umudov olub. O, qadın idmançılarla necə əziyyət çəkdiyini danışıb.



## General-leytenant və general-mayor ehtiyata buraxıldı

***Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyasının rəisi general-leytenant Zakir Ağayev ilə Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin rəisi general-mayor Məmməd Eminov vəzifələrindən azad ediliblər.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə müvafiq sərəncam imzalanıb.

Generallar Ağayev və Eminov ehtiyata buraxılıblar.

Məlumatı Müdafiə Nazirliyindən təsdiqləyiblər. Bildirilib ki, Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyasının rəisi general-leytenant Zakir Ağayev ilə Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin rəisi general-mayor Məmməd Eminov öz arzuları ilə ehtiyata buraxılıblar.

"Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş Zakir Ağayevə 2022-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə general-leytenant rütbəsi verilmişdi.

## ETSN nümayəndəsi Beynəlxalq Konfransda

***Afrika İttifaqı Komissiyası, Birləşmiş Millətlər Təşkilatının Meşələr üzrə Forumu, Afrika Meşə Forumu və Konqo Respublikası Hökumətinin təşkilatçılığı ilə Konqonun Brazavil şəhərində Meşəsalma və Meşələrin Bərpası üzrə Beynəlxalq Konfrans öz işinə başlayıb.***

"Unikal" xəbər verir ki, Beynəlxalq konfransın keçirilməsində məqsəd ağacəkmə və meşələrin bərpası fəaliyyətlərini dəstəkləmək üçün beynəlxalq əməkdaşlığa, maliyyə resurslarının artırılmasına, bu sahədə innovativ layihələrə çıxışın təmin edilməsinə nail olmaqdır.

Konfrans iştirakçıları iqlim dəyişikliyi ilə mübarizə kontekstində planetdə ağaclandırmanın əhəmiyyəti, biomüxtəlifliyin qorunması və ekosistem bütövlüyünün təmin edilməsi ətrafında müzakirələr aparacaq, bəşəriyyəti narahat edən ekoloji məsələlərdə beynəlxalq həmrəyliyin vacibliyi barədə fikir mübadiləsi edəcəklər.

İyul ayının 5-dək davam edəcək beynəlxalq konfransın panel müzakirələrində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi, Nazirliyin ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov ağaclandırma, yeni yaşıllıq sahələrinin salınması və meşə ilə örtülü ərazilərin artırılması istiqamətində ölkədə görülən işlərlə bağlı məlumat verib, iqlim dəyişmələrinin təsirlərinin azaldılması sahəsində yerinə yetirilən tədbirləri beynəlxalq ekspertlərin diqqətinə çatdırıb.

# Məleykə Abbaszadədən "yaylım atəşi"

## Təhsil Nazirliyi ilə DİM arasında "soyuq savaş" yenidən başlayır?

***Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ibtidai sinifdə verilən bir sıra anlayışların başadüşülməz olduğunu deyib. Bu barədə o, VII ADA 2024 Beynəlxalq Təhsil Konfransında çıxışı zamanı bildirib.***

DİM rəhbəri əlavə edib ki, nəinki valideynlər heç bəzi müəllimlər üçün də dərsliklərdəki bu anlayışlar başa düşülmür.

O, bildirib ki, təhsil sisteminə problemlər hər zaman kənardan gəlir.

Məleykə Abbaszadə bu kimi uyğunsuzluqların aradan qaldırılmasını da tövsiyə edib.

Xatırladaq ki, Məleykə Abbaszadə hələ Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri olarkən orta məktəb dərslikləri ilə bağlı bir sıra iradlar səsləndirib və nəticədə onunla Təhsil Nazirliyi arasında soyuqluq yaranıb. Hətta həmin soyuqluq Misir Mərdanovun təhsil naziri olduğu zamanlarda açıq ixtilafa çevrilmişdi.



İş o yerə çatmışdı ki, TQDK orta məktəb dərslikləri ilə bağlı geniş monitorinqlərə başlamış, o dövrdə bununla bağlı Mərdanovun narahatlıqları xeyli güclənmişdi. Monitorinqlərin nəticələri ilə bağlı müzakirələrdə bir qayda olaraq dərsliklərin tənqid atəşinə tutulması, onlardakı nöqsanlara görə Təhsil Nazirliyinin də ittiham edilməsi və bununla bağlı keçirilən iclaslara Mərdanovun əleyhdarlarının çağırılması sabiq naziri əndişələndirmişdi. Misir Mərdanovda narahatlıq var idi ki, aparılan monitorinqlərin sonucunda orta məktəb dərsliklərinin hazırlanmasına nəzarət Təhsil Nazirliyindən alına bilər.Odur ki, sabiq nazir TQDK sədrinə cavab olaraq, ona tələbə qəbulundakı nöqsanlar, hətta korrupsiya şübhələri barədə iddialarla çıxış ediləcəyinə dair ismarıçlar göndərmişdi. Hətta belə iddialar zaman-zaman Mərdanova yaxın bəzi deputatlar, mütəxəssislər tərəfindən dilə gətirilməyə də başlanmışdı.

Bir sözlə, M.Abbaszadə ilə Təhsil Nazirliyinin keçmiş rəhbərinin "ulduzu" uzun müddət barışmamışdı. Mərdanov nazir postunu itirdikdən sonra isə TQDK ilə nazirlik arasında artıq açıq müstəviyə keçən "nüfuz savaşı" səngimişdi.

Düzdür, DİM rəhbəri post-Mərdanov dönəmində bir neçə dəfə də müxtəlif mövzularda Təhsil Nazirliyinin bostanına daş atmağı unutmamışdı. Lakin indi Məleykə xanım dərsliklər üzərindən hazırda Emin Əmrullayevin rəhbərlik etdiyi quruma yenidən üstüörtülü mesajlar göndərir. Onun yazının əvvəlində bəhs etdiyimiz çıxışında ibtidai sinif dərsliklərində verilən bir sıra anlayışların başadüşülməz olduğu barədə söylədikləri ilə yanaşı, bir məqam xüsusilə diqqət çəkir. DİM rəhbərinin təhsil sisteminə problemlər hər zaman kənardan gəldiyini söyləyərkən kim(lər)ə, yaxud nəyə, nələrə işarə vurur? Bu sualın cavabını bilmək maraqlı olardı. "Kənar" deyərkən xanım Abbaszadənin kimə, nəyə, yaxud hara işarə etdiyi ilginc nüansdır.

İnsafən, qeyd etmək lazımdır ki, ibtidai sinif şagirdləri üçün nəzərdə tutulan dərsliklərdə çoxsaylı qəliz sözlərin olduğunu bir sıra ekspertlər vurğulayırlar. Onların da fikrinə görə, dərsliklərdəki akademik sözlər, qarışıq terminlər, qəliz düsturlar və riyazi hesablamalar şagirdləri çətin vəziyyətə salır.

Məsələn, mövzuya münasibət bildirən təhsil eksperti Kamran Əsədov hesab edir ki, ibtidai sinifdə verilən bir sıra anlayışları heç bəzi müəllimlər özləri belə başa düşmürlər. Ekspert bildirib ki, dərsliklərin qəliz olması səbəbindən bəzi valideynlər məcburən övladlarına repetitor tuturlar.

Bununla belə, Əsədov başqa bir önəmli məqama toxunub. O bildirib ki, ibtidai siniflərdə müasir dövrün tələbinə uyğun olaraq tətbiq edilməli olan innovasiya yeniliklərə açıqlığı, sərbəst yanaşmanı, komanda ilə işləməyi, ünsiyyət bacarıqlarını, özünə inamı, tez qərar verməyi və həll yönümlü yanaşmanı dəstəkləyən şagird yetişdirməyi ehtiva edir. Lakin ekspert təəssüflə vurğulayıb ki, ölkədə mövcud vəziyyət ibtidai siniflərdə təhsil verənlərin özlərində bacarıqların olmadığını açıq şəkildə göstərir: İbtidai təhsil uşağın dəyərini qiymətləndirən sanki bir məhək daşıdır. Uşağın növbəti səviyyələrdə təhsilinin uğuru birbaşa ona verilən ibtidai təhsilin keyfiyyətindən çox asılıdır. Bir qədər sərt səslənsə də, millətin intellektual genefondunun formalaşmasında ibtidai təhsilin rolunu heç nə ilə əvəz etmək olmaz. Düzdür, bu gün də ölkəmizdə peşəkar, müasir tələblər yönümündə çalışan ibtidai sinif müəllimləri xeyli saydadır. Lakin onu da etiraf etmək lazımdır ki, qarşıya qoyulmuş tələblərlə uzlaşmayan müəllimlər də az deyil".

Ekspertin fikrincə, mövcud vəziyyətə bəzi hallarda yerli təhsil orqanlarının seyrçi mövqedə durması, ötəri münasibət göstərməsi, müsbət mənada fərqlənməyən müəllimlərin fəaliyyətlərini prinsipiallıqla araşdırıb, qiymətləndirməməsi, onları yaxşılarla bir sırada tutmaları qətiyyən yolverilməzdir.

Deputat Etibar Əliyev isə M.Abbaszadənin iradlarını dəstəkləyib. O, "Günün səsi"nə bildirib ki, mütləq halda, dərsliklərə rəylər bildirilməli və barəsində geniş müzakirələr aparılmalıdır: "Dərsliklər elə yazılır ki, peşəkarların uzun illər bu proseslərdə iştirak etmədiyi həmən məlum olur. Çox vaxt fikir də bildirmirlər. Ona görə də bu zəif və anlaşılmaz dərslikləri hələ ki, dövriyyədən çıxartmaq mümkün deyil".

Göründüyü kimi, Məleykə Abbaszadənin ibtidai sinif dərslikləri üzərindən hələlik üstüörtülü şəkildə Təhsil Nazirliyinə iradlar ünvanlaması yeni polemikaya yol açıb. Lakin DİM rəhbərinin söylədiklərinə Təhsil Nazirliyindən hələlik heç bir reaksiya bildirilməməsi də maraq doğurmaya bilməz. DİM rəhbərinin söylədikləri barədə Emin Əmrullayevin nə düşündüyünü yaqin ki, tezliklə öyrənəcəyik. Nazirin reaksiyası eyni zamanda bu iki qurum arasında kökü onillər öncəyə gedib çıxan ixtilafın yenidən baş qaldırıb-qaldırmayacağına da aydınlıq gətirəcək...

***Sənan Mirzə***

# Azərbaycan dünya nəhəngi ilə yeni müttəfiqlik mərhələsində

## Həm Qərblə, həm də Şərqlə yaxşı tərəfdaşlıq əlaqələri quran Azərbaycan öz milli maraqlarını hər iki qütbdə təmin edəcək

***Azərbaycan Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirində iştirak məqsədilə ötən gün Qazaxıstanın Astana şəhərinə səfər edib. Prezident orada bir sıra həmkarları ilə, eləcə də Çin Xalq Respublikasının lideri Si Cinpinlə təkbətək görüşüb. Görüşdən sonra Azərbaycanla Çin arasında Strateji Tərəfdaşlıq Haqqında birgə saziş imzalanıb.***

Bununla yanaşı, Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti zirvə toplantısı çərçivəsində Azərbaycanla Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə qəbul olunub.

Məsələylə bağlı fikirlərini bizimlə bölüşən siyasi şərhçi Aqşin Kərimov deyib ki, Çin geosiyasi dağınıqlar arasında yeni dünya nizamını həyata keçirən qüdrətli dövlətdir.Onun sözlərinə görə, Azərbaycanla Çinin "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul etməsi rəsmi Bakı ilə Pekinin yeni dünya nizamında qarşılıqlı maraqlarını inkişaf etdirməyi, iqtisadi əməkdaşlıqları dərinləşdirməyi, təhlükəsizlik mühitinə ikitərəfli vahid yanaşmaları əks etdirir: "Azərbaycanın "Vahid Çin" siyasətinə və Tayvanın hər hansı müstəqilliyinin yolverilməzliyinə dair sənəddə göstərdiyi mövqe və Pekinin Azərbaycanın Ermənistanla formalaşdırdığı sülh gündəliyinə dəstəyi müştərək prioritetləri qabağa aparacaq. Bu onu deməyə əsas verir ki, artıq Azərbaycan regional siyasətindən kənara çıxan strategiyanı həyata keçirir. Bu, Çinin Asiyadakı maraq və gündəliyinə dəstəyi ifadə edən prioritetlər şəklində üzə çıxa bilər.Çin isə Cənubi Qafqazda iqtisadi genişlənmə ilə yanaşı geosiyasi məsələlərdə rol alır və bu strategiyasını Azərbaycan üzərindən qurur. Proqnozlaşdırmaq olar ki, Çinin bölgədəki iqtisadi portfeli ilə yanaşı diplomatik-siyasi təsirləri genişlənəcək",- deyə A. Kərimov əlavə edib.

Şərhçi onu da qeyd edib ki, Çin ölkələrin digər ölkələrin daxili siyasətinə qarışmaqdan çəkindiyi çoxqütblü dünya nizamını hədəfləyir: "Bu, Azərbaycanın maraqlarına cavab verən yanaşmadır və nəzərə almaq mütləqdir ki, daxili işlərə qarışmamaq barədə Bəyannamədə də əks olunub.

Bəyannaməni başqa bir prizmadan qlobal güc qarşıdurmasından da təhlil edib. Onun sözlərinə görə, Çin əmindir ki, ABŞ üzərinə götürdüyü hərbi, diplomatik və mənəvi məsuliyyətlərin öhdəsindən gələ bilməmk potensiallarından məhrum olur.Üstəlik, Rusiya-Ukrayna müharibəsi ilə Rusiyanın da mövqelərində böyük zəifləmələrin müşahidə olunacağını istisna etmir. Çin həmin prizmalardan yanaşaraq başqa beynəlxalq aktorların Cənubi Qafqazdakı hegemonluq iddiaları önündə alternativlər yaratmağı hədəfləyə bilər. Pekinin belə gündəliyi Azərbaycana Ermənistanla sülh müqaviləsi layihəsini yekunlaşdırmaq və təhlükəsizlik arxitekturasını formalaşdırmaqda Çinin dəstəyini artıracaq"

"Dünən Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamədə yer alan mühüm müddəalardan biri Çin tərəfinin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlaması, ŞƏT-də Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləməsi və BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlamasıdır". Bunu "Unikal"a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, deputat Tahir Mirkişili deyib. Komitə sədri bildirib ki, 2006-cı ildə yaradılan, Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirliklərini özündə birləşdirən höküməlerarası təşkilat olan BRICS nüfuzlu bir beynəlxalq təşkilatdır: "2023-cü ildə BRICS ölkələrinin cəmi ÜDM-i (alıcılıq qabiliyyəti pariteti əsasında) qlobal ÜDM-in 35.7%-ni təşkil edib. Yarandığı müddətdən keçən 15 il ərzində təşkilat qlobal iqtisadiyyatda öz payını 10.2% artırıb. Müqayisə üçün qeyd edim ki, ən böyük iqtisadiyyatlara malik G7 ölkələrinin qlobal iqtisadiyyatda payı isə bu müddət ərzində 9.7% azalaraq 29%-ə düşüb. Yəni, iqtisadi cəhətdən hazırda BRICS G7-dən böyükdür. Azərbaycanın 2023-cü ildə xarici ticarət döviyyəsinin 20%-i BRICS üzvlərinin payına düşür.

Rusiya və Çin bizim ən çox ticarət etdiyimiz 3-cü və 4-cü ölkədir. Azərbaycanın iqtisadi niyyəti BRICS-in nəqliyyat, kommunikasiya və ticarətlə bağlı fəaliyyətlərində aktiv şəkildə iştirak etməkdir. Bu bizim üçün yeni perspektivlər və imkanlar aça bilər. Çin-Avropa, Rusiya-Hindistan-İran arasındakı ticarət dövriyyəsində Azərbaycan önəmli yer ala bilər. Uzun illər böyük səylər əsasında yaradılan Şərq-Qərb, Şimal-Cənub koridorlarının intensivləşməsi bizə böyük iqtisadi fayda vəd edir. Azərbaycanın həm Avropa Birliyi ilə tərəfdaşlıq münasibətləri, həm də BRİCS, Şanxay Əməkdaşlıq Təşkilatı ilə tərəfdaşlıq münasibətləri ölkəmizin iqtisadi siyasətinə və dünyada yaranan yeni reallıqlara uyğun olaraq atılan addımlardır. Əsas məqsəd, iqtisadi inkişaf, dövlətin iqtisadi cəhətdən güclənməsi, vətəndaşların maddi rifah halının daha da yaxşılaşmasıdır".




T.Mirkişili qeyd edib ki, Azərbaycan artıq qlobal təşəbbüslər ilə çıxış edən, qlobal dialoqun keçirildiyi bir ölkəyə çevrilib. Onun sözlərinə görə, regionda yeni reallıqların yaradılması ölkəmizə qlobal miqyasda inamı daha da artırıb: "Eyni zamanda, dünyada yeni qütblərin, qüvvələrin yaranması baş verməkdədir. Belə bir şəraitdə Azərbaycanın yeni dünyada öz nüfuzlu yerini tutmağa çalışması tamamilə normaldır. Milli maraqlarımız nəyi tələb edəcəksə, o da ediləcəkdir. BRICS-in üzv dövlətləri böyük əmək bazarına, təbii resurslara sahibdirlər. BRICS-in üzvləri BMT Təhlükəsizlik Şurası, G20 və Şanxay Əməkdaşlıq Təşkilatı kimi böyük təşkilatların da üzvləridir. Bu gün bir sıra dövlətlər BRICS-ə üzvlüyə maraq göstərirlər. Bunlar təşkilatın beynəlxalq münasibətlər sistemindəki çəkisindən xəbər verir. 2009-cu ildə BRICS-in ilk Zirvə toplantısı keçiriləndə qəbul edilən birgə bəyanatda göstərilib ki, beynəlxalq təhdidlərlə mübarizədə Çoxtərəfli Diplomatiyaya üstünlük verilir. BRICS bir qütblü dünyaya qarşı yaranıb. BRICS sənədlərində həmrəylik, qarşılıqlı hörmət çərçivəsində əməkdaşlıq təşviq olunur. Ərazi bütövlüyü, suverenliyin toxunulmazlığı kimi məsələlər təşkilatın sənədlərində xüsusi vurğulanır. Siyasi və təhlükəsizlik, maliyyə və iqtisadiyyat, eləcə də mədəni və xalqlar arasında münasibətlər kimi istiqamətlər BRICS çərçivəsində əsas istiqamətlərdir.

Qeyd etdiyim kimi, BRICS qlobal bir təşkilatdır. Mövcud qlobal düşüncəyə fərqli yanaşmanı göstərir. Bu təşkilata üzv olan ölkələr Qərblə bərabərhüquqlu münasibətlərin tərəfdarıdır, üzv ölkələr öz bölgələrində liderliyə iddialıdır. BRICS-in daha bir yaxşı özəlliyi onun digər birliklərə üzvlüklə bağlı məhdudiyyətlər qoymamasıdır. Yəni, üzv ölkələr digər iqtisadi və güc mərkəzləri ilə milli maraqlara uyğun əməkdaşlıq edə bilər. Göründüyü kimi, BRİCS-ə üzvlük Azərbaycanın xarici siyasətindəki çox tərəfli əməkdaşlıq prinsiplərinə cavab verir, iqtisadi siyasətimizin hədəflərinə uyğundur. Hesab edirəm ki, həm Qərblə, həm də Şərqlə yaxşı tərəfdaşlıq əlaqələri quran Azərbaycan öz milli maraqlarını hər iki qütbdə təmin edəcəkdir".

***M.İbrahimli***

---

# Müsavat parlament seçkilərində iştirak edəcəyini açıqladı

***Müsavat Partiyası növbədənkənar parlament seçkilərində iştirak edəcək.***

"Unikal" xəbər verir ki, qərar iyulun 4-də Müsavat Partiyası Məclisinin toplantısında qəbul olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilib.

İndiyə qədər 3 partiyanın - REAL, Ağ Partiya və Vətəndaş Həmrəliyi Partiyasının səlahiyyətli nümayəndələri Mərkəzi Seçki Komissiyasında qeydiyyata alınıb.

# Zakir Həsənov və Kərim Vəliyev təlimləri izlədilər



***Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin şəxsi heyəti ilə mürəkkəb ərazi şəraitində döyüş dəstək vasitələrinin imkan və qabiliyyətlərinin qiymətləndirilməsi, qarşılıqlı əlaqənin təşkili və birgə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə taktiki-xüsusi təlim keçirilir.***

"Unikal" xəbər verir ki, Müdafiə Nazirliyinin rəhbər heyəti təlimin gedişatını izləmək üçün qoşun növlərinin idarəetmə məntəqələrində olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə olunub ki, müasir idarəetmə sistemlərinin və yüksək texnologiyaların tətbiqi ilə keçirilən təlimdə hərbi qulluqçular tapşırıqları peşəkarlıqla yerinə yetirir.

Təlimin keçirilməsində əsas diqqət komanda-idarəetmənin təşkili, o cümlədən komandirlərin qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

# Macarıstan Azərbaycana qoyduğu vetonu ləğv etdi

***Ermənistan bu il ilk dəfə olaraq Avropa İttifaqının Sülh Fondundan 10 milyon avro alacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa İttifaqının diplomatik mənbələri açıqlayıb.

Məlumata görə, Macarıstan əvvəllər bu yardıma qoyduğu embarqonu ləğv edib. Ölkə aprel ayında Azərbaycanın da Aİ Sülh Fondundan yardım almasını tələb edərək layihəyə veto qoymuşdu.

Budapeştin həmin təklifi qəbul edilməsə də, kompromis variant seçilib: Bakıya bu fonddan yox, minatəmizləmə işlərinə ayrıca vəsait veriləcək.

***Ağarza Elçinoğlu***

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:45 PM Page 5



# İlham Əliyev Cozef Baydeni təbrik edib

***Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli cənab Prezident, 4 İyul - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.



Azərbaycan Amerika Birləşmiş Ştatları ilə münasibətlərinə xüsusi əhəmiyyət verir. Ölkələrimiz mürəkkəb regional çağırışların həlli istiqamətində, terrorizmə qarşı mübarizə və beynəlxalq təhlükəsizlik məsələlərində hər zaman yaxından əməkdaşlıq ediblər. Enerji sahəsindəki uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir. Birləşmiş Ştatların Azərbaycanın enerji strategiyasının gerçəkləşməsinə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin reallaşmasına verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndiririk.

Xalqlarımızın mənafeləri naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqlim dəyişmələri və yaşıl enerjiyə keçid məsələlərində ABŞ ilə birgə səylər göstərməyə hazır olduğumuzu vurğulamaq istəyirəm. ABŞ-nin noyabr ayında Bakıda keçiriləcək COP29-a, tədbir çərçivəsində ümumi iqlim məqsədlərinin irəli aparılması yolunda dəstəyi böyük əhəmiyyət kəsb edir. Biz eyni zamanda humanitar, mədəniyyət və turizm sahələrində, sivilizasiyalararası dialoqun təşviqində də Azərbaycan-ABŞ münasibətlərinin genişlənməsində maraqlıyıq.

Azərbaycan yeni geosiyasi reallıqlara və ədalətə əsaslanan, hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş və inklüziv Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasının tərəfdarıdır. Azərbaycan Ermənistan ilə sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarı olaraq sülh gündəliyinin irəli aparılması üçün daim siyasi iradə nümayiş etdirir. Ermənistan ilə münasibətlərin normallaşdırılmasına, bölgədə davamlı sülhün bərqərar edilməsi, sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-nin hər zaman dəstək verməkəzmini təqdir edirik.

Bu gün qarşılıqlı faydalı iqtisadi-ticari əlaqələrimizin şaxələndirilməsi, xüsusilə də yüksək texnologiyalar, rəqəmsal və yaşıl keçid, kənd təsərrüfatı, investisiyalar, aviasiya və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır.

İnanıram ki, dost və tərəfdaş olan Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələri əhatə edən sıx əməkdaşlığın ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Rəsmi Bakıdan Avropa Şurasının bəyanatına cavab

***İyunun 3-də Avropa Şurasının İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) Azərbaycanla bağlı ictimai bəyanatın dərc olunması barədə qərar qəbul etməsi bizi dərindən təəssüfləndirdi.***

"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa Şurasının İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) 3 iyul 2024-cü il tarixli ictimai bəyanatına dair şərhində bildirilib.



Qeyd edilib ki, İQAK, həmçinin "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konversiyasının tələbinə zidd olaraq, Azərbaycanın müvafiq razılığı alınmadan 2022-ci ildə edilmiş xüsusi səfərinin yekunları üzrə hazırlanmış hesabatı tam şəkildə dərc etmək barədə əvvəllər presedenti olmayan qərar qəbul edib:

"Bu yanaşma ədalətsiz və əsassızdır, habelə hüquqi baxımdan sual yaradır. 2002-ci ildən etibarən İQAK bir neçə dəfə ölkəmizə dövri və xüsusi səfər həyata keçirib və Konvensiyanın Azərbaycan tərəfindən həyata keçirilməsinə dair hesabatlar dərc edib. Azərbaycan hesabatlarda qeyd olunan hər bir müddəa üzrə hökumətin mövqeyini təqdim edib. Bunun-la yanaşı, ictimai bəyanatda da qeyd edildiyi kimi, müvafiq çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti üzrə addımlar atılıb və Komitənin tövsiyələri hər zaman nəzərə alınıb.Əməkdaşlıq müddətində Komitəyə bu günə qədər etdiyi səfərlər zamanı lazımi dəstək göstərilib. Yerli təhqiqatların aparılmasına dəstək göstərilməsi ilə yanaşı, nümayəndə heyəti üzvlərinin mümkün ən yüksək səviyyədə qəbul olunmasını təmin etmək üçün addımlar atılıb və əməkdaşlığın əsaslarının möhkəmləndirilməsi üçün bütün səylər göstərilib.

Bu qərarın 2024-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini ratifikasiya etməmək barədə qərəzli qərarından sonra yaranmış Azərbaycan-Avropa Şurası münasibətlərində mövcud vəziyyətin fonunda qəbul edilməsi xüsusilə təəssüf doğurur. Biz bir sıra dövlət qurumları ilə konstruktiv əməkdaşlığın əvəzinə, məsuliyyəti onların üzərinə yıxan sözügedən ictimai bəyanatdakı tənqidləri rədd edirik. Azərbaycan azadlıqdan məhrum edilmiş şəxslərin müdafiə olunması ilə yanaşı, müvafiq təcrübənin ümumi qəbul edilmiş standartlara uyğunlaşdırılması sahəsində əhəmiyyətli irəliləyiş əldə etməkdədir", - məlumatda qeyd olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Prezidentin Qazaxıstana səfəri başa çatdı



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri iyulun 4-də başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

# Türkiyədə FETÖ-yə qarşı böyük əməliyyat

***Türkiyənin 29 vilayətində Fətullahçı Terror Təşkilatına (FETÖ) qarşı əməliyyat keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya "X" hesabında məlumat yayıb.

O, terrorla əlaqəsi olduğu bildirilən 108 şübhəlinin saxlanıldığını bildirib.

# Viktor Orban Azərbaycana səfər edəcək



***Macarıstan Baş naziri Viktor Orban iyulun 5-6-da Şuşa şəhərində keçiriləcək Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitində iştirak etmək üçün Azərbaycana səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazirin sözçüsü Zoltan Kovacs "X" hesabında yazıb.

O bildirib ki, sammitdə əsas diqqət nəqliyyat, əlaqə və iqlim siyasəti vasitəsilə davamlı gələcəyin qurulmasına yönəldiləcək:

"Baş nazir Orban türk tərəfdaş dövlətlərin liderləri ilə də ikitərəfli danışıqlar aparacaq"

# ŞƏT ölkələrinin xarici ticarət dövriyyəsi 8 trilyon dolları ötüb

***Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin xarici ticarət dövriyyəsi 8 trilyon dolları ötüb ki, bu da qlobal ticarətin dörddə birinə bərabərdir.***

"Unikal" xəbər verir ki, bunu Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "ŞƏT plyus" görüşündə bildirib.

Qazaxıstan Prezidenti, eyni zamanda, qeyd edib ki, ŞƏT ölkələrinin iqtisadiyyatları 4-9 faiz arasında yüksək artım tempi göstərir.

Qeyd edək ki, bu gün Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində "ŞƏT plyus" iclası keçirilib.

Tədbirdə Qazaxıstan, Hindistan, İran, Çin, Qırğızıstan, Pakistan, Rusiya, Tacikistan, Özbəkistan, Belarus, Monqolustan, Qətər, BƏƏ, Türkmənistan, Türkiyə və Azərbaycanın dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

# Üçtərəfli görüşə dair birgə bəyanat

***Xarici İşlər Nazirliyi Azərbaycan, Türkiyə və Pakistan üçtərəfli görüşünə dair Birgə Bəyanat yayıb.***

"Unikal" xəbər verir ki, bəyanatda deyilir:

3 iyul 2024-cü il tarixində Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyev, Türkiyə Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Zati-aliləri Şahbaz Şərif Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində Astanada görüşüblər.

Üçtərəfli zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan arasında münasibətlər, həmçinin Qəzza, Kipr, Kəşmir, İslamofobiya kimi regional və qlobal məsələlər müzakirə olunub.

Daha öncə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində parlament spikerləri və xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşlərin həmçinin dövlət başçıları səviyyəsində təşkili nəzərdə tutulur. Habelə, üç ölkə arasında əməkdaşlıq imkanlarını inkişaf etdirmək üçün ortaq niyyət təsdiqlənib. Azərbaycan-Türkiyə-Pakistan arasında üçtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyinə dair razılıq ifadə olunub. Üç ölkə suverenlik və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq münaqişələrin həllində müvafiq ölkələr arasında dialoqun prioritetləşdirilməsini dəstəklədiklərini bildiriblər.

Transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyi də bir daha təsdiqlənib.

Üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində növbəti görüşlər hər üç ölkədə, yəni Azərbaycan, Türkiyə və Pakistanda keçiriləcək.

22_27 IYUl-QARA.qxd 7/4/2024 10:45 PM Page 6



# İlham Əliyev "ŞƏT plyus" formatında görüşdə çıxış edib

## Azərbaycan Prezidenti: "COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik"

***İyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı görüşdə çıxış edib.



Prezident İlham Əliyevin çıxışı: Hörmətli Kasım-Jomart Kemeleviç. Hörmətli dövlət və hökumət başçıları. Əvvəlcə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısına dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Bu, mənim son iki ildə Qazaxıstana dördüncü səfərimdir. Həmin müddətdə Qazaxıstan Prezidenti Azərbaycana üç dəfə səfər edib və bu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir. Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib. Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb. Biz tərəfdaşlarımızla Orta Dəhlizin rəqəmsallaşması üzərində işləyirik.

Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir.

Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.



Hörmətli həmkarlar, 2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi.

Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə Hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq.

Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a ev sahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.

Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktublarını ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm. Sağ olun.

***

Qeyd edək ki, "ŞƏT plyus" formatında keçirilən Sammitə 16 ölkənin dövlət və hökumət başçıları qatılıb. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə Zirvə toplantısında iştirak edir. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib. Azərbaycanın belə mötəbər təşkilatın Sammitinə ikinci dəfə dəvət olunması ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir.

"Çoxtərəfli dialoqun möhkəmləndirilməsi - davamlı sülhə və inkişafa nail olmaq" mövzusuna həsr olunan Zirvə görüşündə ŞƏT-ə üzv ölkələrin dövlət və hökumət başçıları siyasi, iqtisadi-ticari, mədəni-humanitar əməkdaşlıq və digər məsələlərə dair geniş spektrdə aktual mövzuları müzakirə edəcəklər. Əsas siyasi sənəd olan Astana Bəyannaməsi ŞƏT-in bir çox aktual məsələlərlə bağlı mövqeyini ortaya qoyacaq, təşkilatın fəaliyyətini qiymətləndirəcək və gələcək üçün istiqamətləri müəyyənləşdirəcək.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul ediləcək.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.



## COP29-la bağlı qərargah yaradıldı

***Fövqəladə Hallar Nazirliyində (FHN) bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq çərçivəsində qərargah yaradılıb.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib. Bildirilib ki, COP29-a hazırlıq çərçivəsində aidiyyəti təhlükəsizlik məsələlərinin müzakirəsi məqsədilə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib. Müşavirədə nazir müavinləri, FHN-in müvafiq struktur bölmə və qurumlarının rəhbərləri iştirak edib.

Çıxış edən nazir Kəmaləddin Heydərov COP29-la bağlı Azərbaycana gələcək çoxsaylı qonaqların, tədbir keçiriləcək, eləcə də qonaqların yerləşəcəyi məkanların və ətraf ərazilərin aidiyyəti təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll edilməsinin zəruriliyini bildirib. Bu məqsədlə FHN-də yaradılmış və Nazirliyin peşəkar əməkdaşlarından ibarət Qərargahın fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıb.

Daha sonra COP29-a hazırlıqla bağlı aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair Qərargah üzvlərinin görülmüş işlərlə əlaqədar məruzələri dinlənilib, geniş müzakirə aparılıb.

Müşavirəyə yekun vuran nazir Kəmaləddin Heydərov ölkəmizdə keçiriləcək nüfuzlu beynəlxalq tədbirlə əlaqədar Fövqəladə Hallar Nazirliyinin üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün tapşırıqlarını verib.

## Filarmoniyada əməliyyat keçirildi

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında əməliyyat keçirib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, əməliyyat qanun pozuntuları ilə bağlı daxil olmuş məlumat əsasında həyata keçirilib. Bir sıra vəzifəli şəxslərin istintaqa cəlb edildiyi bildirilir.

Əməliyyat barədə rəsmi məlumat verilməyib.

Qeyd edək ki, Filarmoniyanın direktoru Xalq artisti Murad Adıgözəlzadədir.

22_27 IYUl-QARA.qxd 7/4/2024 10:46 PM Page 7





## Xanım direktordan yeni təyinat

***Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Elmi müəssisələrlə iş şöbəsinə müdir təyin olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı Agentliyin direktoru Ülkər Səttarova müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Mübariz Qafarşah oğlu Hacıbəyov Agentliyin Elmi müəssisələrlə iş şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

Qeyd edək ki, M.Hacıbəyov bu təyinatadək Elm və Təhsil Nazirliyinin tabeliyində olan Riyaziyyat və Mexanika İnstitutunda çalışıb və Milli Aviasiya Akademiyasında Ali riyaziyyat kafedrasının professoru vəzifəsini icra edib.

## Bakıda "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq

***6-7 iyul tarixlərində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paytaxtda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Yarmarka 2 gün müddətində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında saat 09:00-dan 19:00-dək fəaliyyət göstərəcək.***



"Unikal" xəbər verir ki, müxtəlif regionlardan əvvəlcədən qeydiyyatdan keçən fermerlər burada yerli kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar. Yarmarkada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan alıcılar Səyyar Qida Laboratoriyasının xidmətlərindən faydalana biləcəklər.

Yarmarkada ümumilikdə 20-dək regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər. Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, yerli və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla təmin olunacaqlar. "Kənddən Şəhərə" yarmarkalarında iştirak etmək istəyən fermerlər +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya və ya yarmarkanın sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər.

# "Ölkəmizdə bazara çıxış o qədər də sərbəst deyil"

### Tahir Rzayev: "Müəyyən bazarlarda sahibkarın ora daxil olmasında, istər heyvandarlıq, istərsə də kənd təsərrüfatı məhsullarını ucuz qiymətə satmasında müəyyən problemlər var"

***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal"a müsahibə verib. O, dizel yanacağının qiymətindəki artımın kənd təsərrüfatına necə təsir edəcəyindən, mövsümi meyvələrin baha olmasının səbəblərindən, bələdiyyələrdə hansı dəyişikliyin olacağından və sənədsiz evlərin nə zaman sənədləşdiriləbiləcəyindən danışıb.***

***-Tahir müəllim, dizel yanacağının pərakəndə satış qiyməti 1 litr üçün 20 qəpik artırılaraq 1 manat müəyyən edilib. Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalında bu yanacağa tələbat yüksəkdir. Bu qiymət artımı kənd təsərrüfatı məhsullarının qiymətinə necə təsir edəcək?***

-Bu qiymətlərin artırılması ilə bərabər dövlət müəyyən məhsulların istehsalına görə verdiyi subsidiyaları da artırır. Bu yaxınlarda ərzaqlıq taxılla əlaqədar müəyyən artımlar oldu. Bununla ərzaqlıq buğdanın inkişafına imkan verilir. Digər kənd təsərrüfatı məhsullarına subsidiyaların ayrılması da diqqət mərkəzindədir. Qiymətlərin artırılması dünya bazarı ilə tənzimlənir. Bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq, müqavilələr var. Dünyada ərzağın və kənd təsərrüfatı məhsullarının qiyməti artırsa, yanacaq bahalaşırsa, o bizə də təsirsiz keçə bilməz. Biz də dünyanın bir parçasıyıq. Bu qiymətləri dünya bazarı ilə əlaqələndirməliyik. Elə məhsullar var ki, onları baha qiymətə alırıq və kənd təsərrüfatında tətbiq edirik. Müəyyən qədər qiymət artımı olmalıdır ki, bunlar tənzimlənsin. Amma bu kənd təsərrüfatına ciddi ziyan vurmayacaq. Kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm dövlət proqramları və layihələri var. Bu layihələrin tətbiqi ilə əlaqədar müəyyən güzəştlərin verilməsi nəzərdə tutulur və dövlət bunu tənzimləyir. Doğrudur, müəyyən fermerlər bundan narahatdırlar. Qiymətin artımı əlavə xərclərə səbəb olacaq. Yaxşı olardı ki, qənaət üsulundan istifadə edilsin. Bəzən yanacaq israfçılıqla istifadə olunur. İri kənd təsərrüfatı şirkətləri yaradılmır. Bu gün sahibkar məhsulun istehsalına heç bir xərc çəkmir. Məsələn, pambığın istehsalı üçün ilk gündən heç bir vəsait qoyulmur. Vəsaitin hamısını pambığın istehsalı ilə məşğul olan şirkətlər hesablayır və sonda hesablaşmalar olur. Tarktoru, yanacağı, toxumu və gübrəni pulsuz götürür. Lazımdır ki, sahibkar yaxşı işləsin yüksək məhsul əldə etsin və qazancı daha çox olsun.

***-Bu il mövsümi meyvələrin qiymətlərinin yüksək olması müzakirə olunan məsələlərdəndir. Qiymətin yüksək olması nə ilə bağlıdır?***

-Bu yaz yağmurlu oldu və müəyyən meyvələrin mayalanmasında problemlər yarandı. Bu il ərik, gilas çox zəif oldu. Təbii şərait əlverişsiz olanda, kənd təsərrüfatı məhsullarına ciddi ziyan vurur. Məsələn, ötən il alça çox idi. Rayona gedəndə təsərrüfatlara baş çəkirəm. Amma bu il alça az oldu. Havanın əlverişsiz keçməsi buna təsir etdi. Amma ötən il alça, gilas və digər kənd təsərrüfatı məhsulları çox idi. Bu il bostan məhsulları boldu. Bu, təbiətlə əlaqədar olsa da, digər tərəfdən bu sahədə müəyyən işbazların fəaliyyəti də var. Bazara çıxış o qədər də sərbəst deyil. Müəyyən bazarlarda sahibkarın ora daxil olmasında, istər heyvandarlıq, istərsə də kənd təsərrüfatı məhsullarını ucuz qiymətə satmasında müəyyən problemlər var. Bu da qiymətlərin artmasına təsir göstərir. Müəyyən adamlar rayondan əti və digər kənd təsərrüfatı məhsullarını alıb şəhərdə baha qiymətə satırlar. Bələdiyyələr və icra strukturları bu barədə ciddi fikirləşməlidirlər. Onlar şəhərdə özlərinin ticarət obyektlərini yaratmalıdırlar. Bələdiyyələr yay aylarında mövsümi kənd təsərrüfatı məhsullarının satışı üçün kiçik köşklər təşkil edə bilərlər. Həmçinin, fermerlərlə müqavilə bağlayıb kənd təsərrüfatı məhsullarını gətirib şəhərdə ucuz qiymətə sata bilərlər. Bu həm onların özlərinin büdcəsi üçün əlverişli olar, həm də adamların rahatlığı üçün vacibdir. Rayondakı bələdiyyələr şəhərdəki hansısa bələdiyyə ilə əlaqə yaradıb həftədə bir dəfə kənd təsərrüfatı məhsullarının burada satışını təşkil edə bilər. Həm bələdiyyə qazanar, həm də camaat rahat alar. Bunun üçün müxtəlif yollar var, təşəbbüs göstərmək lazımdır.



***-Bələdiyyələrdən danışdız. Bu ilin dekabr ayında bələdiyyə seçkiləri keçiriləcək. Həmçinin, qəbul olunan yeni qanunla bələdiyyələrin birləşdirilməsi nəzərdə tutulub. Bu addımlarla bələdiyyələrin fəaliyyətində ciddi dönüş müşahidə ediləcək?***

-Bələdiyyələrin birləşməsi prosesi çox vacibdir. Xarici ölkələrin təcrübəsi də bunu göstərir. Bir çox xarici ölkələrdə olmuşuq. Əhalisi bizim qədər, bizdən az və ya bir qədər çox olan elə ölkələr var ki, orada 250-300 bələdiyyə fəaliyyət göstərir. İlk dəfə bələdiyyələr yaradılanda demokratik proses olaraq konstitusiyada öz əksini tapmışdı ki, vətəndaşların təşəbbüsü ilə hər bir yaşayış məntəqəsində onların yerli özünüidarəetmə orqanı yaradıla bilər. Bu ilkin vaxtda vacib məsələ idi ki, Azərbaycan hələ beynəlxalq aləmə çıxmamışdı və o qədər təcrübəsi yox idi. Vətəndaşlara tam səlahiyyət verildi ki, hər yerdə özlərinin bələdiyyə orqanlarını yaratsınlar, müəyyən qaydada təkmilləşmə, formalaşma getsin. Sonrakı dövr göstərdi ki, əgər bələdiyyənin torpağı, mülkiyyəti, əmlakı yoxdursa, vergisini yığa bilmirsə, nə iş görəcək? Ona görə də birləşdi. İlkin olaraq 2757 bələdiyyə var idi. Sonra bunların sayı azaldı. Hazırda 1606 bələdiyyə var. Əlbəttə, bunların sayı azaldılmalıdır. Ona görə də qanunvericiliyə yeni maddələr əlavə olundu. Orada göstərilir ki, 3000-nə qədər əhalisi olan ərazilərdə bələdiyyələr yaradıla bilər. Bu düzgün formatdır, imkan verir ki, həm bələdiyyələr formalaşsınlar, həm də bələdiyyələrdə daha bacarıqlı adamlar fəaliyyət göstərsinlər. Bu o demək deyil ki, digər qəsəbə və kəndlərdə yerli özünüidarəetmə orqanlarının fəaliyyəti məhdudlaşdırılır.

***-Uzun zamandır sənədsiz evlər məsələsi də öz həllini gözləyir. Hazırda bu istiqamətdə hansı işlər görülür?***

-Bu prosesdə çətinliklər çoxdur. Təəssüflər olsun ki, istər bələdiyyələr, istərsə də vətəndaşlar tərəfindən müəyyən nöqsanlara yol verilib. Vətəndaş düşünməlidir ki, torpaq alıb ev tikirsə, qanuni olmalıdır. Yüksək gərginlikli elektrik xətlərinin altında, iri qaz borularının yaxınlığında, neft şirkətinə məxsus torpaqlarda və s. yerlərdə evlər tikilib. Bunlar ümumi bəlamızdır. Vətəndaş fikirləşmir ki, burada uzun müddət yaşayacaq? Bu sadaladığımız yerlərdə evin olması təhlükəlidir. Bunu vətəndaş da, ona həmin yeri satan da fikirləşməyib. Neçə bələdiyyə sədri tutulub. Bunların hamısı həmin problemlərlə bağlıdı. Dövlət başçısı dəfələrlə göstəriş verib, Milli Məclisdə bununla bağlı məsələ qaldırılıb. Bu istiqamətdə iş gedir. Amma elə olmalıdır ki, vətəndaşların da təhlükəsizliyi təmin olunsun. Yuxarıda qeyd etdiyim evlərdə yaşamaq olmaz. Dövlət də bunu qanunlaşdıra bilməz ki, həmin şəxs orada yaşasın. Səhəri gün həmin yerdə yaşayan vətəndaşa bir şey olanda onu tərtib edən şəxs məsuliyyət daşıyacaq. Müəyyən məsələləri həll etmək çətindir. Ona görə bu işlər yubanır. Bəzi vətəndaşlar kənd təsərrüfatı təyinatlı torpaqlarda ev tikiblər. Min hektarlarla kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti aparılıb. Bu, düzgün deyil. Biz kənd təsərrüfatının inkişafından danışırıq, əgər orada ev tikilibsə, harda məhsul istehsal etmək olar? Hökumətin bu barədə qərarları var. Bunlar həyata keçiriləcək. Konkret nə zaman olacağını demək çətindir.

***Anar Kəlbiyev***

# Tikinti oliqarxlarından yeni tələb

## Paytaxtın memarlığına və yaşıllıqlarına qənim kəsilən MTK-ların ağır günləri başlayır - İlginc təfərrüatlar!

***Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Eldar Əzizov jurnalistlərə son açıqlaması zamanı bəzi "tikinti oliqarxlarını" həyəcanlandıracaq fikirlər səsləndirib. O bildirib ki, şəhərin konstruksiyasına xələl gətirən, ağacları kəsən MTK-lara qarşı ciddi mübarizə aparırıq: "Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və Rayon İcra Hakimiyyətləri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) ilə birgə prosesi nəzarətdə saxlayırıq. Bəzi yerlərdə qanun pozuntularına rast gəlinir".***

Qeyd edək ki, bir neçə gün öncə Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, 145 ünvanında yaşayış binalarının tikintisi məqsədilə "İbrahim-Q" MTK-ya ayrılmış ərazidə üç ağacın və bir neçə kolun kəsildiyi müəyyən edilib. Faktla bağlı akt tərtib olunub.

Xatırladaq ki, bir çox mötəbər beynəlxalq tədbirlərə layiqincə ev sahibliyi edən ölkəmizdə bu il daha bir dünya səviyyəli tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 keçiriləcək. Bu tədbir əhəmiyyəti, miqyası və missiyasına görə ölkəmizdə keçirilən digər tədbirləri geridə qoyur. Tədbir müddətində dünyanın nəbzi olacaq Bakı təxminən 70-80 min xarici qonağı qarşılayacaq.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

Belə bir mötəbər tədbir öncəsində təəssüf ki, bəzi məmurlar, onların himayə etdikləri tikinti şirkətləri öz maddi maraqlarını və mənfəətlərini hələ də hər şeydən yüksək tutmağa, Bakıda və regionlarda yaşıllıqların məhvinə, ağacların kəsilməsinə ya şərait yaradır, ya göz yumur, ya da bu "yaşıl genosid"də birbaşa iştirak edirlər.

COP29 ərəfəsində onlara qarşı aidiyyatı dövlət qurumlarının həssaslığı daha da artıb. Elə Eldar Əzizovun açıqlamasından da bunu başa düşə bilərik. Həmçinin xatırlatmaq yerinə düşər ki, bir müddət əvvəl bu il mayın sonlarında Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov vəzifəsindən azad edilərkən yerli media bir məqama xüsusi diqqət çəkmişdi. Söhbət onun meşə fonduna aid olan 27 hektarlıq torpaq sahəsini 1 sotu 5 min manatdan satmasından gedirdi.

Bu yaxınlarda "Karayev City" MTK-ya inzibati protokol yazılması, bu tikinti şirkətinin iri məbləğdə cərimələnməsini də xatırlatmaq istərdik. Belə ki, protokol müvafiq qurum tərəfindən İnzibati Xətalar Məcəlləsinin 253-1.4-cü (Yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması qaydasının pozulmasına, yeni şəhərlərdə və digər yaşayış məntəqələrində yerləşən yaşıllıqların məhv edilməsinin və yaşıllıq ərazilərində qanuna zidd digər hərəkətlərin qarşısının alınmamasına, yaxud qanunla müəyyən edilən mühafizə tədbirlərinin görülməməsinə görə vəzifəli şəxslər min manat miqdarında, hüquqi şəxslər üç min manat miqdarında cərimə edilir) maddəsinə əsasən tərtib edilib.

Bütün bunların fonunda BŞİH başçısının açıqlaması qarşıdakı günlərdə istər şəhərin konstruksiyasına xələl gətirən, istər onun ekologiyasına, yaşıllıqlarına zərər verən tikinti şirkətləri ilə bağlı yeni, daha sərt addımların atılmasını proqnozlaşdırmaq çətin deyil. Çünki bəzi tikinti oliqarxları hələ də ağaclara qənim kəsilməyə davam edirlər. Məsələn, bir neçə gün öncə məlum olmuşdu ki, paytaxtın Nəsimi rayonu, Mirəsədulla Mirqasımov küçəsi 4 ünvanında tikinti şirkəti yaşıllıq əraziləri məhv edib. Bu barədə İctimai Televiziyanın hazırladığı süjetdə deyilirdi. Ötən ildən ərazidə tikinti aparılan zaman məhv edilən ağacların aqibəti soruşulan zaman bildirilib ki, ağaclar budanır və ya ərazidə saxlanılır. Amma, ağacların heç biri yerində deyil. Ərazidə yaşayan sakinlərin sözlərinə görə tikinti şirkəti tərəfindən kəsilmiş ağacların sayı 260-dan çoxdur və tikinti şirkətinin qanunsuz söküntü işlər apardığına görə artıq Baş Prokurorluğa müraciət edilib.



Məsələdə adı hallanan və sabiq deputat Əsabil Qasımova məxsus olduğu iddia olunan "İnvest M. Construction" tikinti şirkəti isə deyilənləri təkzib etməyə çalışıb, lakin şirkət nümayəndəsinin bu mövzuda açıqlaması kifayət qədər əndrabadi alınıb. O bildirib ki, hər hansı köçürülmüş ağacın əvəzində bərpa işləri olacaq və lazımı qədər ağac əkiləcək. Sonra da əlavə edib ki, nizamsız əkilən (???) ağaclar yeni tikiləcək binanın inşasına mane olur, bu isə qanunvericiliyə əsasən (!) ağacları köçürməklə (???) həllini tapır.

Ancaq Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların kəsilməsi faktını təsdiqlədi. Nazirlikdən bildirildi ki, faktla bağlı akt tərtib edilib, təbiətə dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından, toplanmış materiallara hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Ümid edək ki, bu və digər faktlarla bağlı da qanunauyğun şəkildə sərt cəzaların şahidi olacağıq.

Maraq üçün onu da deyək ki, bu il Azərbaycanda ekoloji hüquqpozma faktları üzrə 25 cinayət işi başlanılıb. Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Şəbnəm Məmmədova mayda Xətai Rayon Prokurorluğunda keçirilən "Yaşıl dünya üçün hüquqi yeniliklər" adlı tədbirdə bildirmişdi ki, 2023-cü ildə isə ekoloji hüquqpozma faktları üzrə 133 cinayət işi başlanılıb.

**Toğrul Əliyev**

# Ali Məhkəmədə İraq Respublikasının nümayəndə heyəti ilə görüş keçirildi



***2024-cü il iyulun 4-də Azərbaycan Respublikası Ali Məhkəməsinin dəvəti ilə ölkəmizdə səfərdə olan İraq Respublikasının Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın başçılıq etdiyi nümayəndə heyəti ilə Ali Məhkəmədə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Məhkəmə sistemində yeni informasiya texnologiyalarından istifadə edildiyi, hakim vəzifəsinə seçim prosedurlarının müasir standartlara uyğunlaşdırıldığı, qanunvericiliyin təkmilləşdirildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, hazırda məhkəmələrin müasir tələblərə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması, məhkəmə-hüquq sistemləri arasında əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi zamanın tələbidir.

Dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Faiq Zidan ikitərəfli əlaqələri yüksək qiymətləndirib, iki ölkə arasında məhkəmə-hüquq sahəsində münasibətlərin daha da genişlənməsi üçün imkanların olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycanda məhkəmə fəaliyyətinin təşkilati-hüquqi təminatının, müsbət təcrübəsinin öyrənilməsi xüsusi önəm daşıyır.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olublar.

# Mərkəzi Bank "PashaPay"a lisenziya verdi




***"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ödəniş xidmətlərinin göstərilməsi üçün lisenziyanın əldə edilməsinə dair Azərbaycan Mərkəzi Bankına (AMB) müraciət etmiş təşkilatların qiymətləndirilməsi həyata keçirilməkdədir.***

AMB-dan "Unikal"a bildirilib ki, bu istiqamətdə aparılan işlər çərçivəsində Mərkəzi Bankın İdarə Heyətinin 2024-cü il 27 iyun tarixli Qərarı ilə "PashaPay" MMC-yə elektron pul təşkilatı fəaliyyətini həyata keçirmək hüququ verən müddətsiz lisenziya təqdim olunub.

Qeyd edək ki, Mərkəzi Banka ödəniş xidmətlərinin göstərilməsi üçün lisenziyanın əldə edilməsinə dair müraciət etmiş digər təşkilatların qiymətləndirilməsi hazırda davam edir. Ödəniş xidmətlərinin həyata keçirilməsi üzrə verilən lisenziyalarla bağlı məlumatlar Mərkəzi Bankın internet səhifəsi vasitəsilə açıqlanır.

# Daha bir jurnalistə vəzifə verildi



***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nəzdində fəaliyyət göstərən "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsdə təyinat olub.***

"Unikal" Oxu.Az-a istinadən xəbər verir ki, bununla bağlı müvafiq əmr imzalanıb.

Əmrə əsasən, Ceyhun Musa oğlu Musayev publik hüquqi şəxsin İctimaiyyətlə Əlaqələr, vətəndaş müraciətlərinin qəbulu şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

C.Musayev bu gündən rəsmi olaraq vəzifəsinin icrasına başlayıb.

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:46 PM Page 9



# Nazirlər Kabinetindən dəmiryol nəqliyyatı barədə qərarlar



***Nazirlər Kabineti dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısının, eləcə də onların geyim formasının, fərqlənmə nişanlarının təsvirinin və daşınması qaydasının təsdiq edilməsi haqqında qərar qəbul edib.***

”Unikal” xəbər verir ki, qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Hökumət başçısı həmçinin “Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında qərara imza atıb. Qərara əsasən, ixtisas imtahanı aşağıdakı kateqoriyalar üzrə müəyyən edilmiş dəmiryol nəqliyyatı vasitələrinə münasibətdə keçirilir:

“Eq” - Elektrik qatarı;
“Dz” - Dizel qatarı;
“E” - Elektrovoz;
“T” - Teplovoz;
“Lm” - Lokomobil;
“M/Dr/Mk” - Motovoz/Drezin/Maşın kompleksi.

# Magistraturaya qəbul olunanların sayı açıqlandı



***İxtisaslaşma seçimində iştirak edən 15 min 660 bakalavrdan 13 min 484 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub.***

Bu barədə ”Unikal”a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib.

Qeyd olunub ki, qəbul olunanlardan 5996 nəfər dövlət sifarişi, 7488 nəfər isə ödənişli əsaslarla təhsil alacaq. 9694 nəfər ali təhsil müəssisələrinin cari, 3790 nəfər isə əvvəlki illərin məzunudur.

Nəticələrə əsasən, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ayrılmış 15922 plan yerinin 84.69%-i dolub.

Magistraturaya qəbul 71 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Proqramlar üzrə ayrılmış plan yerlərinin dolma göstəriciləri fərqlidir. Misal üçün, fövqəladə hallar, hava nəqliyyatı, balıqçılıq, bədən tərbiyəsi, kosmik texnika və texnologiyalar mühəndisliyi, optotexnika, yanğın təhlükəsizliyi və aktyor sənətinə uyğun olan 24, 25, 52, 54, 60, 62, 71, 74 saylı proqramlara ayrılmış plan yerləri tam (100%) dolub. Ancaq nəzərə almaq lazımdır ki, bu proqramların bəziləri üzrə plan yerlərinin sayı az idi və onların tam dolacağı əvvəlcədən gözlənilirdi.

Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı dəmiryol nəqliyyatı, dinşünaslıq, pirotexniki vasitələrin texnologiyası, çoxişlənən malların texnologiyası sahələrinə aid 8, 51, 63, 72 saylı proqramlara ayrılmış plan yerlərinin 70% və ya daha çoxu boş qalmışdır.

Müsabiqənin nəticələrinə əsasən, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Naxçıvan Müəllimlər İnstitutu, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı Qızlar Universitetində plan yerləri tam (100%), Azərbaycan Dövlət İqtisad Universiteti, Dövlət İdarəçilik Akademiyasında plan yerləri 95%-dən çox, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyasında 90% və daha çox dolub. Plan yerlərinin dolma göstəricisi üzrə ən zəif nəticə (41% və daha aşağı) Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Xoreoqrafiya Akademiyası və Azərbaycan İlahiyyat İnstitutuna aiddir.

# Monopolistlər üçün "qara gün"

## İnhisarçıların illərdir əngəllədikləri qanun qüvvəyə mindi - Bundan sonra nə olacaq?



***Bu il iyulun 1-ni monopolistlər üçün ”qara gün” adlandırmaq olar. Belə ki, həmin gündən Azərbaycanın Rəqabət Məcəlləsi qüvvəyə minib.***

Mövzu ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yaydığı məlumatda deyilir ki, 2 fəsil, 84 maddədən ibarət olan Məcəllə ölkədə əlverişli biznes mühitinin inkişafı, təsərrüfat subyektlərinin sayının və iqtisadiyyata cəlb olunan investisiyaların artması üçün geniş imkanlar yaradacaq.

Şübhəsiz ki, Rəqabət Məcəlləsinin qəbulu və qüvvəyə minməsi inhisarçılar üçün əsla arzuolunan deyil. Elə ona görə də illərdir adı çəkilən qanunlar toplusunun qarşısında az qala ”Çin səddi” hörmüşdülər.

İndi isə həmin məcəllənin qüvvəyə mindiyi günün - iyulun 1-nin monopolistlər üçün sözün həqiqi mənasında ”qara gün”ə çevrilməsi üçün bu sənədin icrası mühüm şərtdir. Ümid edək ki, Azərbaycanda qanunvericiliyin bir sıra tələblərinin işləməsində müşahidə olunan axsama Rəqabət Məcəlləsindəki müddəaların yerinə yetirilməsi zamanı qarşımıza çıxmayacaq.

Elə iqtisadçı-ekspert Akif Nəsirli də mətbuata son açıqlamasında bildirib ki, Rəqabət Məcəlləsi rəqabəti tənzimləyən qanundur: ”Bizdə isə rəqabət yoxdur. Rəqabət olmadığına görə onu tənzimləyən Məcəllənin olması hər hansı ciddi dəyişikliyə səbəb ola bilməz. Lakin Rəqabət Məcəlləsinin qəbulu yaxın zamanda hökumətin ölkə iqtisadiyyatında rəqabət mühitinin formalaşması üçün müəyyən addımları atacağını deməyə əsas verə bilər. Bu, təqdirəlayiq haldır”.

Xatırladaq ki, Rəqabət Məcəlləsi ölkə müstəqillik əldə etdikdən bəri ən çox gözlənilən sənəd idi. 2006-cı ildə Milli Məclisdə məcəllə layihəsi hazırlanaraq birinci və ikinci oxunuşda müzakirə olunub, lakin ondan sonra bir daha müzakirəyə çıxarılmayıb. Amma dəfələrlə məcəllənin hazırlanmasını nəzərdə tutan sərəncam və tapşırıqlar verilib.

Onu da deyək ki, indiyədək sahibkarlıq sahəsində rəqabət mühiti 1995-ci il tarixli “Haqsız Rəqabət haqqında” və 1993-cü ildə qəbul olunan “Antiinhisar fəaliyyəti haqqında” qanunlarla tənzimlənirdi.

Rəqabət Məcəlləsi layihəsinin uzun müddətdir, daha dəqiq desək, 17 ildən bəridir qəbul edilməməsi müəyyən oliqarxların monopolist maraqları ilə izah olunurdu. Hətta Milli Məclisin deputatı Vahid Əhmədov açıqlamalarında bildirirdi ki, sözügedən sənədin qəbul edilməsinə mane olan monopolistlər hələ də var: ”İstəmirlər ki, belə bir məcəllə qəbul edilsin. İndiki zamanda rəqabət məcəlləsinin qəbul edilməsi bu kimi halların qarşısını almaq, azad rəqabəti təmin etmək üçün olduqca əhəmiyyətlidir...”

Deputat bir müsahibəsində isə açıq şəkildə demişdi ki, Azərbaycanda bazara nəzarət edən müəyyən qruplar var. Sitat: ”Onlar bazarı əldən vermək istəmirlər. Ona görə də bu Məcəllənin qəbul edilməsində maraqlı deyillər. Çünki Rəqabət Məcəlləsi qəbul edildikdən sonra bazarda rəqabət olacaq. Hər bir sahibkar öz malını satanda problemlə üzləşməyəcək. Ona görə də Rəqabət Məcəlləsinin qəbul olunmasına mane olanlar var...”

Başqa bir millət vəkili Əli Məsimli isə açıq şəkildə vurğulamışdı ki, sözügedən layihənin qəbulunun gecikməsi cəmiyyətdə onun hansısa monopolist çevrələr tərəfindən əngəlləndiyi barədə söz-söhbətləri gündəmə gətirir.

Nəhayət, Rəqabət Məcəlləsi tərəfindən qəbul edildi, Preziden tərəfindən təsdiqləndi və yola salamaq üzrə olduğumuz həftə, iyulun 1-də qüvvəyə mindi. Beləliklə, ölkədə inhisarçılığın aradan qaldırılması, sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində ciddi qanunverici baza artıq qüvvədədir. İndi əsas düşündürücü məqam ondan ibarətdir ki, sözügedən Məcəllənin parlamentdə qəbulunu 17 ildir əngəlləyən monopolist dairələr qanunun icrası önündə də əngəl yaratmağa çalışacaqlar, ya yox?!

Açığı, son zamanlar ölkədə korrupsiyaya, məmur oliqarxiyasına qarşı hüquqi müstəvidə sərt addımların atılması monopolistlərin qarşıdakı mərhələdə Rəqabət Məcəlləsinin işləkliyini minimuma endirmək cəhdlərini müəyyən qədər istisna edir. Lakin bu cür cəhdlərin olmayacağını düşünmək də sadəlövhlük olardı.

İnanaq ki, yüksək postlar tutub rüşvət və korrupsiya ilə bəslənən məmurlara qarşı son illərdə müşahidə etdiyimiz güzəştsizliyi Rəqabət Məcəlləsinin tələblərini pozmağa çalışan monopolistlərə qarşı da görəcəyik.

Unutmayaq ki, inhisarçılar müxtəlif vasitələrdən istifadə (daha doğrusu, sui-istifadə!) edərək, qanunvericiliklə yolverilməz vasitə və üsullardan faydalanaraq yüksək mənfəət götürmək məqsədi ilə ayrı-ayrı fəaliyyət sahələrini, məhsul növlərinin idxal-ixracını və bazarların xeyli hissəsini nəzarətə alıb azad rəqabəti boğmaqla inkişafımızın tormozlayıcı amilinə çevriliblər. Rəqabət Məcəlləsindən gözlənti bu anormal gedişatın durdurulmasıdır. Ümid edək ki, cəmiyyətin həmin gözləntisi elə gözlənti olaraq da qalmayacaq...

***Toğrul Əliyev***

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:46 PM Page 10



# Mahir Quliyevlə Vilyam Hacıyevə "azadlıq yolu"

## Həbsdəki korrupsioner məmurların aldıqları cəzaların yüngülləşdirilməsi ilə bağlı iki fərqli fikir hökm sürür

***Bu günlərdə həbsdəki iki sabiq icra başçısının cəzaları azaldıldı. Belə ki, öncə İmişlinin məhkum sabiq icra başçısı Vilyam Hacıyevin kassasiya şikayətinə baxıldığı xəbəri yayıldı.***

Xəbərdə bildirilirdi ki, Ali Məhkəmədə hakim Şahin Yusifovun sədrliyi ilə keçirilən prosesdə Vilyam Hacıyevin cəzası 8 il 6 ay müddətinə azaldılıb.O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə xüsusilə külli miqdarda mənimsəmədə və rüşvət almaqda təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Yeri gəlmişkən, bundan əvvəl isə Ali Məhkəmədə hakim Əziz Seyidovun sədrliyi ilə Vilyam Hacıyevin ailə üzvlərinin şikayəti üzrə qərar verilib. Vilyam Hacıyevin həyat yoldaşı Cülyetta İbrahimova 5 milyon 218 min manatlıq mənzilləri və 2 minik avtomobilinin, oğlu Məhəmməd Hacıyev isə 126 000 manatlıq "Land Rover" markalı avtomobilin müsadirədən azad olunmasını istəyirdilər.

Dəyəri 5 milyon manatdan artıq qiymətləndirilən əmlakların dövlət nəfinə müsadirəsi qərarı qüvvədə saxlanılmışdı.

Xatırladaq ki, Vilyam Hacıyev Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci ildə keçirilən əməliyyat zamanı həbs olunmuşdu.

Sabiq icra başçısı Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) 313-cü (vəzifə saxtakarlığı) və 228-ci (qanunsuz silah saxlama) maddələri ilə təqsirli bilinib, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il azadlıqdan məhrum edilib.Hökmə əsasən, üzərinə həbs qoyulmuş 5 milyon 344 min manatlıq əmlak dövlət nəfinə müsadirə olunub.

Vilyam Hacıyevin ardınca Biləsuvarın məhkum edilmiş sabiq icra başçısı Mahir Quliyevlə də bağlı qərardan verilmiş kassasiya şikayətinə baxılıb.Ali Məhkəmə eks-icra başçısının şikayətini qismən təmin edib.Qərara əsasən, M.Quliyevin cəzası 11 ildən 8 il 3 aya endirilib.

Məlumatı onun vəkili Ceyhun Yusifov təsdiqləyib.

Xatırladaq ki, M.Quliyev də 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla həbs olunub. Korrupsiya cinayətlərində ittiham olunan sabiq icra başçısı Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Onun Bakıda yerləşən 2 mənzili və 1 avtomobili dövlət nəfinə müsadirə olunub.

Sabiq başçı müsadirə olunan əmlaklarından Bakı şəhəri, Nərimanov rayonu, T.Şıxalıyev küçəsi, ev 20, mənzil 141-in geri qaytarılmasını istəyib. Lakin onun istəyi məhkəmə tərəfindən təmin olunmayıb.

Adları çəkilən iki icra başçısının həbs cəzalarının xeyli azaldılması onların bir müddət sonra azadlığa buraxıla biləcəyinə dair ehtimallar yaradıb. Belə iddialar dolaşır ki, antikorrupsiya əməliyyatları zamanı saxlanılan iri məmurlar vəzifədə olarkən dövlətdən oğurladıqlarını geri qaytarmaq müqabilində cəzalarının azaldılmasına, yüngülləşdirilməsinə nail ola bilirlər. Bu mövzu məmur həbslərinin qızğın vaxtında da gündəmə gəlmişdi. O vaxt deputatlardan Razi Nurullayev demişdi ki, həbs edilən icra başçılarının, eləcə də digər məmurların dövlət büdcəsindən oğurladıqları məbləğləri qaytarmaları vacibdir. Sitat: "Əgər onlar dövlətə vurduqları ziyanı, oğurladıqlarını qaytarırlarsa, açığı o zaman onların azadlığa çıxmalarına pis yanaşmıram. Yox, əgər bir icra başçısı, yaxud məmur ciddi cinayət törədibsə və onun törətdiyi cinayətin, etdiyi hüquqsuzluq, qanunsuzluğun miqyası böyükdürsə, insanlara ciddi şəkildə mənəvi, psixoloji terror törədibsə, əziyyət veribsə, onun oğurladığının maştabı bilinmirsə, o zaman həbsdə saxlanıla bilər. Amma istənilən halda, onların həbsdə qalması heç kimə heç nə vermir... Onların büdcəyə ödədikləri vəsaitlərlə hər hansı bir sosial problemi həll etmək olar. Yoxsa məmurlar həbs olunur, pullarını, varlarını saxlayırlar, onlara heç kim gözün üstə qaşın var demir, onlar da bir neçə il həbsdə qalıb çıxandan sonra gedib kef içərisində yaşamağa başlayırlar. Bu da yolverilməzdir".



Bəzi ekspertlər isə fərqli düşünürlər. Onların fikrincə, ağlasığmaz korrupsiya faktları səbəbindən həbsə atılan məmurlarla bağlı yüngülləşdirici qərarlar, onların cəzalarının azaldılması, bir neçə il həbs yatdıqdan sonra azadlığa çıxmaları qətiyyən doğru deyil. Bu, hələ də vəzifədə olan məmurları büdcə talançılığına həvəsləndirə bilər. "Hansısa vəzifəli şəxs baxır ki, filan korrupsioner milyonlarla manatı mənimsədi, getdi 3-4 il, uzağı 5-6 il həbs yatıb çıxdı, sonra da başladı büdcədən oğurladıqlarını rahat-rahat, xımır-xımır yeməyə, belədə o nə düşünür? Düşünür ki, uzaqbaşı onun özü də ömründən bir neçə ili itirmək bahasına böyük varidata yiyələnə bilər. Yəni, həbsdəki korrupsioner məmurlarla bağlı yüngülləşdirici qərarların vəzifədə olan məmurları korrupsiya məsələsində cəsarətləndirməyəcəyinə təminat yoxdur" deyə bəzi mütəxəssislər vurğulayırlar.

Bəs bu iki mövqe arasında doğru olan hansıdır? Qoy bunu da oxucular desinlər...

***Sənan Mirzə***



# Fazil Mustafaya qarşı sui-qəsdlə bağlı statusu bəyənən şəxs həbs edilib

***Bakıda narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Rza Kərimovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə təqsirləndirilən şəxs R. Kərimov ifadə verib. O ifadəsi zamanı narkotik vasitələrdən istifadə etmədiyini, uzun müddətdir Allaha ibadətlə məşğul olduğunu bildirib: "Bayıl qəsəbəsində mebel sexində anbardar işləmişəm. 2 il idi ki, orada çalışırdım. Elə o ünvanda da saxlanılmışam. 4 nəfər polis əməkdaşı gəlmişdi. İbtidai istintaq zamanı verdiyim ifadələrim ziddiyyətli şəkildə olub. İfadəmi təzyiq altında vermişəm. Mən heç vaxt narkotikdən istifadə etməmişəm. Polis əməkdaşları ilk olaraq bizim işçiyə yaxınlaşıb. Həmin vaxt məni maşına dəvət etdilər. Lakin, bilmədim hansı səbəbdən mənə yaxınlaşdılar. Orda xalam və əmim oğlu, eləcə də digər işçilərimiz də var idi. Polis əməkdaşlarından birini tanıyırdım. Ümumiyyətlə bütün bu hadisələr 5-10 dəqiqə ərzində baş verdi. Onlar məni aparanda axşam saat 6-ya qalmışdı. Mən özümü bu iş üzrə təqsirli bilmirəm. Ailəliyəm, 3 övladım var. Özüm 44 günlük Vətən müharibəsində ön cəbhəyə yardımlar etmişəm. Mən saxlanılan zaman vəkil də iştirak edib. Mənim üzərimdə heç bir narkotik vasitə olmayıb. Mən günahsızam".

Təqsirləndirilən şəxsin vəkili Yusif Seyfəlov bildirib ki, müvəkkili narkoloji dispanserə aparılsab da, onun barəsində ekspertizadan keçmədən narkotik istifadəçisi olması ilə bağlı rəy verilib. Rza Kərimovun məhkəmədə verdiyi ifadəsindən də məlum olub ki, heç vaxt narkotik vasitədən istifadə etməyib:

"Narkoloji dispanserin əməkdaşları verdikləri izahatda yazıblar ki, guya mən 1 ildir narkotik vasitələrdən istifadə edirəm, qanımdan da narkotik çıxıb. Mən getmişəm ekspertizadan keçmişəm, orada heç nə deməyiblər. Mən özümü təqsirli bilmirəm. Məndən əvvəl tanıdığım dindarları tutublar, sonra məni də onlara görə tutublar. Məni Fazil Mustafaya qarşı edilən sui-qəsd ilə bağlı yazılan "Haran ağrıyır Fazil?" adlı statusu layk elədiyimə görə tutublar. Həmçinin istintaq təcridxanasında da mənə aid olan kartın üzərinə belə yazıblar. Polislər məni həbs edəndə təzyiq etməyiblər, hətta mənə iftar açmağıma görə yemək də alıb gətiriblər, həmin vaxtı Ramazan ayı idi, mən də oruc tuturdum".

Daha sonra onun istintaq dövründə verdiyi ifadəsi elan edilib.

Qeyd edək ki, Rza Kərimov 2023-cü il mart ayının 29-u Zəngilan rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Səbail rayonu ərazisində saxlanılıb.

Belə ki, Rza Kərimov idarəyə dəvət edilib və üzərinə keçirilən şəxsi axtarış zamanı üzərindən 20 qram narkotik vasitə aşkar edilərək götürülüb.

Ona qarşı Cinayət Məcəlləsinin 234.1-1 (satış məqsədi olmadan külli miqdarda narkotik əldə etmə, saxlama, daşıma) maddəsi ilə ittiham irəli sürülüb, barəsində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, növbəti məhkəmə prosesi iyul ayının 17-nə kimi təxirə salınıb.

***Seymur Əli***

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:46 PM Page 11





## "Evi sökülən vətəndaşın iddiaları həqiqəti əks etdirmir" - DİN

***Paytaxtın Yasamal rayonu, Əlibəy Hüseynzadə küçəsində A.Quliyevaya məxsus evin qanunsuz sökülməsi ilə bağlı polis idarəsində müvafiq araşdırmalar aparılmaqla aidiyyəti üzrə göndərilib.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a bildirilib ki, iyunun 30-da 00:30 radələrində evin qapısının sındırılması, fəhlələr, həmin şirkətin vəzifəli şəxsləri tərəfindən ev sahibəsinin məcburi formada evdən çıxarılması, daha sonra traktorla əşyaları içində ola-ola evin qəsdən sökülməsi, külli miqdarda maddi ziyan vurulması və onun sağlamlığına xəsarətlər yetirilməsi üzrə polisə daxil olan müraciət üzrə bütün xüsuslar araşdırılmaqla müvafiq ekspertizalar təyin edilib. Araşdırma çərçivəsində həmin şirkətin rəhbər və işçiləri, şikayətçi xanım polis bölməsinə dəvət ediliblər. Polis əməkdaşları tərəfindən bütün xüsuslar üzrə tərəflərin izahatları alınıb, sübutlar toplanılmaqla zəruri tədbirlər icra olunub.

Cinayət Məcəlləsinin vəzifə səlahiyyətlərindən sui-istifadə, əmlakı qəsdən məhv etmə və zədələmə maddələrinin tərkib əlamətlərinin olub-olmamasının müəyyənləşdirilməsi məqsədilə toplanmış materiallar araşdırmanın davam etdirilməsi üçün rayon prokurorluğuna göndərilib.

O ki qaldı, şikayətçiyə polis əməkdaşları tərəfindən təzyiq edilməsi iddiaları həqiqəti əks etdirmir. Hadisə baş verən vaxt polis əməkdaşları orazidə olmayıblar, yalnız müraciətdən sonra polis əməkdaşları əraziyə yaxınlaşaraq, tərəflər arasında mübahisəni dayandıraraq araşdırılması üçün onları polis bölməsinə dəvət ediblər.

## Kamran Əliyev İraqın Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə görüşdü

***İyulun 4-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İraq Ali Məhkəmə Şurasının sədri cənab Faiq Zidan və Dövlət Prokurorluğunun sədri Nacmu Abdullah Əhməd ilə görüşüb.***

Prokurorluqdan "Qafqazinfo"ya verilən məlumata görə, qonaqları salamlayan Baş prokuror geniş tərkibli nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla İraq arasında hüquqi əməkdaşlığın uğurlu başlanğıcı kimi qiymətləndirib.

Kamran Əliyev hər iki dövlətin prezidentlərinin birgə səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində ölkələrimiz arasında münasibətlərin dinamik şəkildə inkişaf etdiyini bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Baş prokuror cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək iraqlı həmkarlarını tədbirdə iştiraka dəvət edib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Faiq Zidan iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, hüquq-mühafizə orqanları arasında cinayətkarlığa, xüsusilə də terrorçuluqla mübarizə sahəsində qarşılıqlı səmərəli əməkdaşlığın aparılmasının vacibliyini ifadə edib.

Tərəflər əlaqələrin möhkəmləndirilməsi istiqamətində müqavilə hüquq bazasının genişləndirilməsini müzakirə ediblər.

Görüşdə İraqın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Maki Resan Abdulla Əl-Mamori də iştirak edib.

# Mehdi Səlimovun yeni vəzifə ümidi

## Sabiqlərin izi ilə: Göyçayın sabiq icra başçısı məmur karyerasını bərpa edə biləcəkmi?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Göyçay Rayon İcra Hakimiyyətinin sabiq başçısı Mehdi Səlimzadə haqqındadır.***

Xatırladaq ki, 1996-2000-cı illərdə Milli Məclisin Yerli özünüidarəetmə məsələləri üzrə Daimi Komissiyasında ekspert, 2000-2003-cü illərdə Mərkəzi Seçki Komissiyasının üzvü, 2004-cü ildən Azərbaycan Bələdiyyə Qulluqçuları Həmkarlar İttifaqının təsis edilməsiylə bağlı yaradılan təşkilat qrupunun rəhbəri və komitənin ilk sədri, 2004-cü ildən Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin rəisi vəzifələrində çalışan Səlimzadə 2016-cı ildə Göyçaya icra başçısı təyin edilmişdi.

Onun bu vəzifədə "macərası" 6 il sürdü - Mehdi müəllim 2022-ci il fevralın 28-də həmin postdan uzaqlaşdırıldı.

Səlimzadənin icra başçısı təyinatı nə qədər gözlənilməz olsa da, bu vəzifədən kənarlaşdırılması heç də sürpriz deyildi. Çünki onunla bağlı son zamanlar bir-birindən qalmaqallı xəbərlər yayılmağa başlamışdı, belə aydın olurdu ki, Göyçayda korrupsiyadan tutmuş məmur özbaşınalığınadək saysız-hesabsız ciddi problemlər yaşanır.

Belə ki, hələ 2021-ci ilin oktyabrında Göyçay rayonu Qarayazı kənd sakini, həmin vaxt Şəki Penitensiar Müəssisəsində saxlanılan Əliyev Loğman Kərim oğlu Bizimyol.info-ya şikayətində onun məhz Mehdi Səlimzadənin törətdiyi cinayətə görə şərləyib həbs etdiklərini bildirmişdi. Şikayətçinin iddiasına görə, cinayət ittihamında qeyd edilən 250 000 manat pulu məhz o vaxtkı icra başçısı Mehdi Səlimzadə mənimsəyib. Sitat: "Mənə qarşı irəli sürülən ittiham tam qanunsuzdur. Həmin pulları mən yox icra başçısı Mehdi Səlimzadə mənimsəyib ki, buna dair konkret və mötəbər subutlarım var. Mən 2015-ci il tarixdə Göyçay rayon Sanitar-Təmizlik idarəsinin rəisi vəzifəsinə təyin edilmişəm. Mehdi Səlimzadə isə 2016-cı ilin iyun ayında Göyçay rayon icra hakimiyyəti başçısı vəzifəsinə təyin edilib. Mehdi Səlimzadənin tapşırığına əsasən işə əlavə qəbul edilmiş şəxslər adları işdə getsə də, özləri heç vaxt işə gəlməyiblər. Onların əmək haqları isə birbaşa Mehdi Səlimzadəyə çatıb. Əgər istintaq düzgün aparılarsa, bu, subut olunacaq..."

Göyçay rayon İcra Hakimiyyətindən isə bu iddialarla bağlı həmin vaxt bildirilmişdi ki, Loğman Əliyev Sanitar Təmizlik İdarəsinə rəhbərlik etdiyi dövrdə ciddi maliyyə və digər pozuntulara yol verdiyi üçün aidiyyatı orqanların apardıqları araşdırmalar nəticəsində açılmış cinayət işi hazırda müvafiq məhkəmədə baxılır və məhkəmə tərəfindən məsələyə hüquqi qiymət veriləcək.

Lakin çox keçmədən Səlimzadənin ətrafında daha böyük bir qalmaqal yaşandı. Belə ki, o, 2022-ci ilin fevralında vəzifəsindən uzaqlaşdırıldı və cəmi 2 ay sonra aydınlaşdı ki, əvvəla, Göyçay rayonu ərazisində qanunsuz tikinti-quraşdırma işlərinin aparılması və digər qanun pozuntusu faktları ilə əlaqədar daxil olan vətəndaş müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işinin istintaqı başlanıb; ikincisi, aparılmış istintaq tədbirləri ilə hazırda Göyçay Rayon İcra Hakimiyyəti başçısının Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsində işləyən Şükürov Rəşad Əlibala oğlunun daha əvvəl - Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyərkən rəhbərlik etdiyi struktur qurumun digər vəzifəli şəxslərindən ibarət korrupsiya şəbəkəsinin üzvləri ilə qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ayrı-ayrı vəzifəli şəxslərdən xidməti vəzifələrinin icrasına davam etmələri üçün rüşvət verməyəcəkləri təqdirdə işdən çıxarılacaqları ilə bağlı hədə-qorxu gələrək öz xidməti otağında onlardan müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyənləşdirilib.

Bundan sonra M.Səlimzadənin başı üzərində "qara buludların" dolaşmağa başladığına, aparılan istintaqın və R.Şükürovun saxlanılmasının Mehdi müəllimə yaxşı heç nə vəd etmədiyinə dair iddialar dövriyyəyə buraxıldı.

O da maraqlıdır ki, sabiq icra başçısı hələ vəzifədən azad edildikdən cəmi bir neçə gün sonra ölkə mediası onun həbs oluna biləcəyinə dair xəbər yaydı. Məsələn, Bakupost.az yazırdı ki, Səlimzadənin vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və başqa qanunsuz əməllərinin ifşa olunduğu bildirilir. Sitat: "Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar, ayrı-ayrı vəzifəli şəxslərin dindirilməsi, sonra Mehdi Səlimzadənin də istintaqa cəlb edilməsi faktı da bunu göstərir".

"Oxu.az" isə qeyd edirdi ki, Göyçayın sabiq rəhbəri iri məmurlarla qohumluq əlaqəsi olan, bununla da "toxunulmazlıq statusu" qazanan şəxslərdən hesab olunub. "Lakin son illər Prezidentin kadr islahatları, "təmizləmə əməliyyatı" "toxunulmaz şəxs" anlayışını tarixin arxivinə göndərib. Ən "köklü-budaqlı" məmurların belə vəzifədən azad edilməsi, onların törətdikləri əmələ görə cavab verməyə məhkum olunması, korrupsiya ilə məşğul olan məmurların ən sərt şəkildə cəzalandırılması faktlarına tez-tez rast gəlirik. Dövlət başçısı çıxışlarında qanunları pozan şəxslərin heç bir güzəşt edilmədən cəzalandırılacağını dəfələrlə bəyan edib. Hətta belə şəxslərin əvvəlki xidmətlərinin də nəzərə alınmayacağını bildirib" - Səlimzadə ilə bağlı xəbərlərin davamında yerli KİV vurğulayırdı.

Göyçayın sabiq icra başçısı isə adı ətrafındakı bütün bu iddiaları susqunluqla qarşılayır və hər hansı münasibət bildirməyə lüzum görmürdü. Prosesin sonrakı gedişində M.Səlimzadə ilə bağlı həbs proqnozları özünü doğrultmadı. Lakin sabiq başçının məmur karyerasının erkən bitməsi kifayət qədər düşündürücü məqamdır.



Bəs Səlimzadə haradadır və nə işlə məşğuldur?

Sabiq başçının adı uzun aradan sonra bir neçə gün öncə yenidən gündəmə gəldi. Onun istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı məhkəməyə müraciət etdiyi bildirildi, əlavə edildi ki, keçmiş icra başçısının iddiası Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə qarşıdır. Lakin qurumdan verilən açıqlamada Səlimzadə ilə adı çəkilən Agentlik arasında heç bir məhkəmə çəkişməsinin olmadığı vurğulandı.

Göyçayın sabiq rəhbərinin biznesinin olduğu, həmin biznesle bağlı işlərə kənardan, yaxın adamları vasitəsilə nəzarət etdiyi bildirilir. Hazırda əsasən Bakıda yaşadığı, paytaxtı daha çox tətil və biznes işləri məqsədilə tərk elədiyi söylənilən Mehdi müəllimin yeni təyinat gözlədiyi, məmur karyerasını davam etdirmək istədiyi də bu iddialar arasındadır. Lakin 1955-ci il təvəllüdlü keçmiş başçının 70 yaş astanasında hansısa yüksək vəzifəyə təyin edilməsi az ağlabatandır.

***Toğrul Əliyev***

22_27 IYUl-QARA.qxd 7/4/2024 10:46 PM Page 12



# 5.3.9. azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Hamılıqla bir ideologiya uğrunda!

## "Azərbaycançılıq ideologiyası gələcəyimiz üçün xüsusi əhəmiyyət daşıyır" - Rüfət Quliyev



***"Azərbaycanın istər daxilində, istərsə də xaricində Azərbaycançılıq ideyası dövlət tərəfindən kifayət qədər təbliğ olunur. Bu ideologiyanın formalaşması, inkişafı və şaxələnməsi vacib məsələdir. Bunu dövlət başçısı, cənab İlham Əliyev də öz çıxışlarında dəfələrlə vurğulamışdır".***

Bunu "Unikal"a açıqlamasında deputat Rüfət Quliyev bildirib. O, deyib ki, bu istiqamətdə təbliğat işləri aparılsa da, bunun davamlı olmasına daim ehtiyac var.

"Bu istiqamətdə təbliğat, təşviqat işləri artırılmalıdır. Media vasitəsilə, eləcə də, müxtəlif yollarla azərbaycançılıq ideyası hələ vətəndaşlara erkən yaşdan aşılanmalıdır. Hətta mən deyərdim ki, orta məktəblərin son siniflərindən bu istiqamətdə uşaqlar arasında təbliğat və maarifləndirmə işlərinə başlanılmalı, fənn olaraq tədris edilməlidir. Ali məktəblərdə isə bunu fakultativ formada tətbiq etmək olar. Çünki, azərbaycançılıq ideologiyası bizim üçün çox vacibdir".

R. Quliyev bildirib ki, hətta bolşeviklərin, kommunistlərin dövründə ən güclü silah ideologiya olub: "Kommunizm, sosializm ideologiyası istiqamətində təbliğat güclü aparılırdı. Azərbaycançılıq ideologiyası isə milli maraqlarımız üçün vacibdir. Bizim gələcəyimiz üçün bu ideologiya xüsusi əhəmiyyət daşıyır. Xaricdə də azərbaycançılıq ideologiyası təbliğ olunmalıdır. Milli və dövlət bayramları zamanı, görüşlərdə, parlamentlərarası görüşlərdə azərbaycançılıq ideologiyası əsas xətt olmalıdır. Daim azərbaycançılıq ideologiyasının təbliği istiqamətində iş aparılmalıdır. Bizim prezidentimiz də azərbaycançılıq ideologiyasının gücləndirilməsinə böyük önəm verir".

R. Quliyev onu da əlavə edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası bu gün onun siyasi xəttinin layiqli davamçısı olan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Deputat deyib ki, Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideologiyasını irəli sürməsi, onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir.

Qeyd edək ki, məhz Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra xüsusi fəallıqla lobbiçilik fəaliyyətinə start verildi. Böyük rəhbər azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif ali məktəblərinə qəbul edilməsinə xüsisi diqqət göstərirdi. 1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illər SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərilmişdi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Ümummilli Lider bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə, soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa təşviq edirdi. Ulu Öndər daim həmvətənlərimizi yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, eyni zamanda Vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun Azərbaycanı təmsil etdiklərini unutmamağa çağırırdı. 1997-ci ildə Heydər Əliyev ABŞ-yə rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Məlum olduğu kimi, 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmaların mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlməsi isə sonralar dünyanın müxtəlif yerlərində yaşayan həmvətənlərimizin əsl sloqanı oldu.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması diaspor quruculuğu işinin ən mühüm məsələlərindəndir. Həmin yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və davamlı olaraq bu gün də həyata keçirilir. Böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən müdrik siyasəti bu gün nəticəsini verməkdədir. Dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri ölkəmizin tanınması, milli maraqlarının və dövlət mənafeyinin qorunması yolunda əsl fədakarlıqlar edirlər. Ulu Öndərin ideyalarının özündən sonrakı mərhələlərdə də davam etdirilməsi diaspor quruculuğuna töhfələrini verir. Bu gün də onun azərbaycançılıq ideyası davam etdirilir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında görüş keçirilib

***Azərbaycana səfəri çərçivəsində Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabonenin başçılıq etdiyi arxeoloq və ekspertlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovla görüşü olub.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, müxtəlif səviyyələrdə reallaşan qarşılıqlı səfərlərin, o cümlədən 2002-ci ildə Papa II İohann Pavelin, 2016-cı ildə Papa Fransiskin ölkəmizə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın isə Vatikana səfərlərinin həm ikitərəfli əlaqələr, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, imzalanan sənədlərin münasibətlərimizin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Müzakirələr zamanı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin fəaliyyətindən, formalaşmış səmərəli əməkdaşlıq, birgə layihələrin icrasından məmnunluq ifadə edilib, hazırda da müştərək layihələr üzərində işlərin uğurla davam etdirildiyi bildirilib. Vurğulanıb ki, Fond tərəfindən Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasının həyata keçirilməsi, mədəni irsin qorunması sahəsində işlər görülməsi ikitərəfli münasibətlərin dərinləşməsinə töhfədir. Paskal Yakabone görülən bütün işlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Dini etiqad və vicdan azadlığının tam təmin olunduğu, çoxlu sayda dini icmanın fəaliyyət göstərdiyi, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şəraitin təmin edildiyi Azərbaycanda digər dini icmalara olduğu kimi, katolik icmaya da göstərilən diqqət, ölkəmizdə kilsə və məbədlərin, o cümlədən katolik kilsələrin bərpası istiqamətində görülən işlər yüksək dəyərləndirilib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun gələcəkdə də Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb. Görüşdə tarixi və mədəni əhəmiyyət daşıyan abidələrin bərpası istiqamətində təcrübə mübadiləsinin əhəmiyyətinə də nəzər salınıb.

Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabone hər 25 ildən bir Müqəddəs Taxt-Tacda keçirilən və növbəti mərasimin 2025-ci ilə təsadüf etdiyi Müqəddəs Yubiley İli ilə bağlı tədbirə Heydər Əliyev Fondunun da dəvətli olduğunu diqqətə çatdırıb.

22_27 IYUl-QARA.qxd 7/4/2024 10:46 PM Page 13



## Budapeştdə ilk qısametrajlı ortaq türk filminin nümayişi olub

***Macarıstanın paytaxtı Budapeşt şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Gənclərin İnteqrasiyası və İnkişafı Assosiasiyası (AYİD) tərəfindən təşkil olunan "Film gecəsi"ndə ilk qısametrajlı ortaq türk filminin premyerası keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Macarıstan və digər ölkələri təmsil edən tələbələr, gənclər də daxil olmaqla 50-dən çox qonaq iştirak edib.

Premyeranın əvvəlində Gənclərin İnteqrasiyası və İnkişafı Assosiasiyasının (AYİD) sədri vəzifəsini icra edən Fərqanə Bayramlı çıxış edərək, ortaq türk tarixi, mədəniyyəti, adət-ənənələri və dəyərlərinin təbliğində azərbaycanlı gənclərin rolundan söz açıb. Qeyd olunub ki, azərbaycanlı gənclər Azərbaycanla Macarıstan arasında mədəni əlaqələrin möhkəmləndirilməsi və inkişafında yaxından iştirak edirlər.

Tədbirin davamında azərbaycanlı həvəskar rejissor, Nazim Aqşın Musabəyli tərəfindən çəkilmiş ilk qısametrajlı ortaq türk filmi sayılan "Ən ağır sınaq" adlı ekran əsəri də daxil olmaqla, ümumilikdə 6 filmin nümayişi baş tutub. Həmin filmlərin qəhrəmanları Azərbaycan, Türkiyə, Qırğızıstan, Türkmənistan, Qazaxıstan və Macarıstandandırlar.

Filmlərdə qürbətdə yaşayan azərbaycanlı gənclərin başına gələn hadisələrdən bəhs olunur. "İtalyansayağı qonşu" və onun davamı olan "İtalyansayağı qonşu 2: Federikonun qayıdışı" filmlərində özünü italiyalı kimi qələmə verən Fəxrəddinin başına gələn gülməli hadisələr, "Psix hansımızıq?" filmində isə ukraynalı qıza vurulmuş azərbaycanlı oğlanın sərgüzəştləri yer alıb.

Qonaqlar tərəfindən ən çox diqqəti cəlb edən isə "Seçimlər, dəxi sonuclar", "Ən ağır sınaq" filmləri olub. "Seçimlər, dəxi sonuclar" filmində Budapeştdə yaşayan qazaxıstanlı bir xanımla onun yanına qonaq gəlmiş azərbaycanlı bir gəncin timsalında insanların seçimlərinin onların həyatına böyük təsirindən bəhs edilib.

Tədbir yaradıcı heyətin səhnəyə dəvət olunması, qonaqları maraqlandıran sualların cavablandırılması, ardınca isə musiqili proqramla yekunlaşıb.

## Ağdaşda 2024-cü ilin məhsulu üçün yazlıq bitkilərin əkini başa çatmışdır

***Rayonda yazlıq kənd təsərrüfatı bitkilərinin əkini artıq başa çatmışdır. Mövsüm ərzində 5040,2 hektar sahədə yazlıq bitkilərin əkini aparılıb.***

Bu dövrdə 832,0 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) 167,4 hektar sahədə qarğıdalı (ondan 98,0 hektarı dən üçün qarğıdalı), 208,0 hektar sahədə kartof, 1152,0 hektar sahədə tərəvəz, 218,0 hektar sahədə bostan bitkiləri, 25,0 hektar sahədə dən üçün günəbaxan, 15 hektar sahədə şəkər çuğunduru, 2418,4 hektar sahədə çoxillik otlar, 3,0 hektar sahədə birillik otlar və 1,4 hektar sahədə sair yazlıq bitkilər əkilmişdir.

**Yazlıq bitkilərin əkin sahəsinin quruluşu**




***Ağdaş Rayon Statistika İdarəsi***

# II və III ixtisas qrupları üzrə qəbul imtahanının vaxtı açıqlandı

***II və III ixtisas qrupları (o cümlədən I ixtisas qrupu üzrə RK və Rİ altqruplarının hər ikisini seçənlər üçün informatika fənni) üzrə qəbul imtahanının vaxtı məlum olub.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, imtahan iyulun 7-də keçiriləcək.

İmtahanda, ümumilikdə 47520 abituriyentin iştirakı nəzərdə tutulur. Dövlət İmtahan Mərkəzi tərəfindən iyulun 7-də II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək. Həmin gün I qrup üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni üzrə imtahan da keçiriləcək.

İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba və Xaçmazda təşkil olunacaq.

İştirakçılar iyunun 30-dan etibarən Dövlət İmtahan Mərkəzinin saytından "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış



vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

**Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 195 imtahan binası, 3559 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 195 ümumi imtahan rəhbəri, 587 imtahan rəhbəri, 4454 nəzarətçi, 639 buraxılış rejimi əməkdaşı, 195 bina nümayəndəsi cəlb olunub.

İmtahanda II ixtisas qrupu üzrə 17431 ,III ixtisas qrupu üzrə 21193, I ixtisas qrupu üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni üzrə imtahanda isə 8896 nəfər olmaqla, ümumilikdə 47520 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 85 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyulun 6-da təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

İmtahanların gedişini işıqlandırmaq üçün 30 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.

# Bakıda qadın həkimi şantaj edib 42 minini alıblar

***Azərbaycanda məşhur xəstəxanalardan birinin qadın həkimi şantaj edilib.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, həkimin yaxın münasibətdə olduğu kişi sonradan ona hədə-qorxu gəlməyə başlayıb.



Ramin Əkbərov (ad və soyad dəyişdirilib-red) planlı şəkildə həkim xanımla səmimi olduğu anın görüntülərini çəkib. Sonradan isə həmin videnu qadının ərinə və oğluna göndərəcəyini deyib. R.Əkbərov həkimi və ailəsini əvvəldən tanıdığı üçün xanımın onun hədə-qorxularından çəkinəcəyinə əmin olub.

Zərərçəkmiş şəxs isə videonun yayılacağı halda rüsvay olacağını düşünərək qarşı tərəfin tələblərini yerinə yetirib. Bundan sonra Raminə müxtəlif vaxtlarda 10 min dollar, 10 min manat və fərqli məbləğlər olmaqla ümumilikdə 42 min manat pul verib. Həkim ifadəsində deyir ki, onu şantaj edən şəxsə verdiyi pulları məcbur qaldığı üçün bankdan kredit götürüb. Bir müddət sonra Ramin başqa cinayətə görə həbs edilib. Lakin o, həbsdə olduğu vaxt da həkimi şantaj edib, yanına sovqat gətirməsini istəyib. Həkim xanım isə yenə də çəkinərək onun yanına gedib, istədiyi şeyləri aparıb.

Zərərçəkmiş şəxs bir müddət sonra bankdan götürdüyü krediti ödəyə bilməyib. Digər tərəfdən də hədə-qorxular davam etdiyi üçün polisə şikayət edib.

R.Əkbərova Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə cinayət işi başlanılıb. Təqsirləndirilən şəxs ilkin ifadəsində özünü təqsirli bilmədiyini deyib. O, zərərçəkmişi və ərini çoxdan tanıdığını, nəyə görə sonradan ondan belə bir ittihamla şikayət etdiyini bilmədiyini deyib.

22_27 IYUl-QARA.qxd 7/4/2024 10:46 PM Page 14



# Ölümsüz həyat...

***Şəhid kapitan Vüsal Tahir oğlu Quliyev 44 günlük haqq savaşımızda Vətən, xalq yolunda özünü fəda etdiyinə görə əbədi bir ömür qazanıb. Bu, Vətən sevdalısı indi təkcə doğulub boya-başa çatdığı cənub mirvarisi Lənkəranın deyil, bütün Azərbaycanın qürur yeridir. Qərinələr keçəcək, gələcək nəsillərə də onun keçdiyi şərəfli həyat yolu örnək olacaq. Necə deyərlər, şəhidlər heç vaxt ölmür, səmada parlaq günəşə çevrilib mənən milyonların könlünə köç edirlər.***

Ölümsüzlüyə qovuşan, ürəklərin əbədi sakini olan şəhid Vüsal Quliyev 39 yaşına qədəm qoydu. Lənkəran şəhər Heydər Əliyev Mərkəzində ”Tariximiz qürurumuzdur” layihəsi çərçivəsində bu münasibətlə “Şəhidlər ölməz” adlı tədbir baş tutdu.



Lənkəran şəhər İcra Hakimiyyəti rəsmilərinin, şəhid ailələrinin , Qarabağ müharibəsi əlillərinin, veteranların, rayon ictimaiyyəti nümayəndələrinin, şəhidin təhsil aldığı Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziyasının müəllim və şagirdlərinin qatıldığı tədbirdə əvvəlcə Vüsal Quliyevin şəxsi əşya və fotolarından ibarət sərgiyə baxış oldu.

Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi, ulu öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı naminə şəhid olan qəhrəmanların xatirəsini bir dəqiqəlik sükutla yad etməklə tədbir başladı. Şəhid kapitanın həyat yolunu özündə yaşadan video çarxın nümayişindən sonra Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva dedi:-Azərbaycan Prezidenti cənab İlham Əliyevin və rəşadətli ordumuzun qətiyyəti sayəsində 44 günə əzəli yurd yerimiz, 30 il əsarətdə olun Qarabağımız düşmən işğalından azad edildi. Qazanılan möhtəşəm zəfər sayəsində həm də ölkəmizin həyatında yeni mərhələnin və inkişaf dövrünün əsası qoyuldu.

Digər natiqlər bildirdilər ki, Vüsal bizim fəxrimizdir. Onun ömür yolu nə qədər qısa olsa da, o, gələcək nəsillər üçün bir şərəfli tarix yazıb. Vətənpərvərlik, cəsurluq, igidlik, mərdlik məktəbidir Vüsalın keçdiyi yol. Belə ölümsüzlüyə qovuşan qəhrəmanları yad etmək, xatirəsini əziz tutmaq hər bir azərbaycanlının ən müqəddəs borcudur. Vüsalın axıtdığı qanla Qarabağımız canlanır, Vətən yaşayır.

Aşağı-Nüvədi kənd Sənətkarlıq Evinin müdiri Vüsal Bağırov Azərbaycan Yazıçılar Birliyinin üzvü, ”Payızın 44 anı” kitabının müəlliflərindən biri, şairə Xatirə Xatunun sözlərinə yazılan və musiqisini Zəminə Tariyel qızı bəstələyən Vüsal Quliyevə həsr olunan mahnını ifa etdi. Məktəblilərin, eləcə şəhidin Vətənə əmanət qoyduğu övladlarının ifasında səslənən şerlər tədbirə özgə ovqat qatdı. Həmçinin Heydər Əliyev Mərkəzinin baş fond mühafizi Aygün Əkbərova çıxışında ürəkləri riqqətə gətirən sözlər dedi və şəhidin anasına yağlı boya ilə çəkilmiş Vüsalın portretini təqdim etdi.

Şəhidin ailə üzvləri dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdilər, tədbirin təşkilində əməyi olan hər bir kəsə təşəkkür etdilər.

Uşaqlıqdan Vətənə sevgi, düşmənə nifrət ruhunda böyüyən Vüsal Quliyev həyatını hərbiyə bağlayıb. Belə ki, orta təhsilini Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziyada alıb, Heydər Əliyev Ali Hərbi Məktəbinə daxil olub. 2007-ci ildə oranı leytenant kimi bitirib Gəncə, Ağstafa, Ağcabədi, Beyləqan, Goran və Tərtərdə yerləşən hərbi hissələrdə Vətənə oğulluq borcunu şərəflə, ləyaqətlə yerinə yetirib. Hərbin sirlərinə mükəmməl yiyələnib, hər an işğalçı düşməndən qisas alacağı günü gözləyib. 2020-ci ilin 27 sentyabrda arzuladığı məqam yetişib. Vüsal ilik gündən kapitan rütbəsində ön cəbhəyə yollanıb, Vətən torpaqlarının azadlığı naminə özünü odun-alovun içinə atıb. Tərtər rayonu, Suqovuşan kəndində gedən ağır müharibə meydanında düşmənə qarşı son nəfəsə qədər döyüşüb şəhidlik zirvəsinə ucalıb.

Ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeninə, “İgidliyə görə” “Vətən uğrunda” və Füzulinin, Qubadlının azadlığına görə medallarına layiq görülüb. Otuz beş yaşında əbədiyyət adlı dünyasına qovuşan Vüsal xalqına iki qız, bir oğlan əmanət qoyub. Övladları da onun kimi Vətənpərvər böyüyürlər...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Qobustanda təsərrüfatların 90%-nin genişzolaqlı internetə çıxışı təmin edilib

***“Onlayn Azərbaycan” layihəsi çərçivəsində “Aztelekom” MMC Qobustan rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradıb.***

”Unikal” xəbər verir ki, Qobustan şəhərində şəbəkənin tikintisi başa çatdırılıb. Şəhər mərkəzində 3613 təsərrüfatdan 2233 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır.

Rayonun Dərəkənd, Cəyirli, Çəlov, Qurbançı, Ərəbşahverdi, Bədəlli, Sədəfli, Cəmcəmli, Ərəbqədim, Göydərə, Nardaran, Yekəxana, Təsi, Poladlı, Təklə, Təklə Mirzəbaba, Çuxanlı, Nabur, Bəklə, Xilmilli kəndlərində və Üzümçü qəsəbəsində 3486 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb.



Ümumilikdə rayonda mövcud təsərrüfatların 90%-nin genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 4401 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam etdirilir.

GPON texnologiyasının tətbiqi ilə abunəçilərə daha yüksəksürətli (40 Mbit/s-dən 100 Mbit/s-dək) internet paketləri (internet, internet + telefoniya, internet + televiziya, internet + telefoniya + televiziya) təklif olunur. Xidməthaqqı seçilmiş tarifdən və müştəri tələbatından asılı olaraq 18 AZN-dən 48 AZN-dək dəyişir.

Vətəndaşlar xidmətlərə qoşulmaq üçün “Aztelekom”un “170” Çağrı Mərkəzinə zəng edə, ərazi üzrə xidmət göstərən şöbəyə, həmçinin www.aztelekom.az saytı vasitəsilə müraciət edə bilərlər.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi “Onlayn Azərbaycan” layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

Qeyd edək ki, ümumilikdə 2,49 milyona yaxın təsərrüfat genişzolaqlı internetlə əhatə olunub. Bu, ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 85%-ni təşkil edir.

# Laçının yenilənən Sus kəndi...



***Laçın rayonunun Sus kəndi yenidən tikilib. Uzun illər ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış sakinlər artıq bir aydan çoxdur ki, doğma yurda daimi yaşamağa qayıdıblar.***

”Unikal” xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Laçın rayonunun Sus kəndinin indiki vəziyyətini göstərən videoçarxı şərhsiz təqdim edir.

Xatırladaq ki, Laçın rayonu Sus kəndi, dövlət başçısının tapşırığı əsasında, tamamilə yenidən tikilib və zəruri infrastrukturla təchiz edilib. İndiyədək Sus kəndində 59 ailə (215 nəfər) fərdi yaşayış evi ilə təmin edilib.

# Məzunlara attestatlar verilir



***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki məktəblərdə IX və XI sinfi bitirən məzunlara attestatlar verilir.***

“Unikal” xəbər verir ki, attestatlarda illik və imtahan qiymətləri yazılır. Tam orta təhsil haqqında attestatda isə şagirdin bitirdiyi sinfin təmayül istiqaməti də qeyd olunur.

2023-2024-cü tədris ilində BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin IX siniflərini 43 664, XI siniflərini 28 993, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 125 nəfər bitirib.

Qeyd edək ki, attestatlar Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası” əsasında məzunlara təqdim olunur.

# Ucar rayonunda dövlət qulluqçuları haqqında məlumat




***01 yanvar 2024-cü il tarixə Ucar rayonunda dövlət qulluqçularının orta illik siyahı sayı 114 nəfər olmuş, onlardan 16 nəfəri qadınlar təşkil edib.***

Cari ildə dövlət qulluqçularının 101 nəfəri inzibati, 13 nəfəri yardımçı vəzifələri tutmuşlar. 114 nəfər dövlət qulluqçusundan 46 nəfəri rəhbər işçilərdir ki, onlardan da 1 nəfəri qadındır.

Dövlət qulluqçularının 13,4 faizi 25-29 yaşda, 13,4 faizi 30-34 yaşda, 12,5 faizi 35-29 yaşda, 18,8 faizi 40-44 yaşda, 8 faizi 45-49 yaşda, 11,6 faizi 50-54 yaşda, 7,1 faizi 55-59 yaşda, 13,4 faizi 60-64 yaşda, 1,8 faizi 65 və yuxarı yaşda olanlardır.

Dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı keçən illə müqayisədə 10,9 faiz artaraq 1418,4 manat təşkil etmişdir.

***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Emin Qəhrəmanov***



# Belarus ŞƏT-in tamhüquqlu üzvü oldu

***Belarus Respublikası Şanxay Əməkdaşlıq Təşkilatının tamhüquqlu üzvü oldu.***

"Unikal" xəbər verir ki, bu barədə Şanxay Əməkdaşlıq Təşkilatının sammitində açıqlanıb.

Qeyd edək ki, tədbirdə Qazaxıstan, İran, Çin, Qırğızıstan, Pakistan, Rusiya, Tacikistan, Özbəkistan, Belarus, Monqolustan, Azərbaycan, Qətər, Türkiyə və Türkmənistanın dövlət və hökumət başçıları, Əmirliyin əmiri Ras əl-Xaimah, Hindistanın Xarici İşlər Naziri, eləcə də ŞƏT-in baş katibi və ŞƏT-in Regional Antiterror Strukturunun İcraçı Direktoru iştirak edirlər.

***Ağarza Elçinoğlu***

# İsrail Fələstin ərazisinin ən böyük hissəsini ələ keçirib



***"Şalom Ahşav" hüquq müdafiə təşkilatı İordan çayının qərb sahilində 1270 hektar ərazinin İsrailin nəzarəti altına keçdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu, son 30 ilin İsrail tərəfinə keçən ən böyük ərazi kimi qiymətləndirilib.

Qeyd edək ki, iyunun 30-da İsraillə hərbi qarşıdurma başlayandan bəri (07.10.2023) Qəzzada 38 minə yaxın adam həlak olub.

***Gülayə Mecid***

# Rusiya "İsgəndər"lə daha bir qırıcını vurdu



***Rusiyanın "İsgəndər" əməliyyat-taktiki kompleksinin ekipajı Ukraynaya məxsus MiQ-29 qırıcısını məhv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Təyyarə Krivoy Roqdakı Dolgintsevo aerodromunda olub: "Zərbə nəticəsində Ukrayna Silahlı Qüvvələrinin MiQ-29 döyüş təyyarəsi, aviasiya silahları və aviasiya mühəndisliyi xidmətinin maşınları məhv edilib".

***Ağarza Elçinoğlu***

# "Ordu Ukraynaya getməyəcək" - Polşa prezidenti

***Polşa öz ordusunu Ukraynaya göndərmək niyyətində deyil.***

"Unikal" xəbər verir ki, bu barədə respublika prezidenti Anjey Duda slovakiyalı həmkarı Peter Pelleqrini ilə görüşündən sonra bildirib.

Onun sözlərinə görə, bu cür hərəkətlər Kiyev və Moskva arasında silahlı münaqişədə NATO-nun birbaşa iştirakını təşkil edəcək: "Mən də inanmıram ki, Polşa öz ordusunu Ukraynaya göndərsin. Bu, NATO dövlətinin müharibəyə girməsi olardı".

# "Paris Ermənistana hərbi dəstəyini davam etdirəcək"

***Azərbaycan Fransaya qarşı mübarizəni gücləndirir, onu Sakit okean, Karib hövzəsi və Latın Amerikasının Fransa ərazilərində qızışdırır və bu, Parisin İrəvana silah-sursat verməsi ilə bağlıdır.***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" yazıb.

Qeyd olunub ki, üçüncü ən böyük erməni diasporunun məskunlaşdığı Fransa İrəvanla silah müqaviləsi imzaladıqdan sonra qarşıdurma daha da böyüyəcək: "Prezident Emmanuel Makron tərəfindən təyin edilmiş növbədənkənar parlament seçkilərinin nəticələrindən asılı olmayaraq, Parisin Ermənistana hərbi dəstəyini davam etdirəcəyi gözlənilir".



Situasiyanın gərginləşməsi Avropa İttifaqının Azərbaycandan qaz idxalını iki dəfə artırmaqla bağlı sazişinin icrası ilə bağlı problemlər fonunda baş verir, çünki bloka daxil olan ölkələr boru kəmərlərinin genişləndirilməsini maliyyələşdirmək istəmir.

Fransanın müdafiə naziri Sebastyan Lekorn iyunun 18-də bildirib ki, Paris İrəvana özüyeriyən haubitsalar satacaq. Bundan əlavə, Fransa artıq radarlar, zenit müdafiə sistemləri və zirehli personal daşıyıcıları tədarük etməyi öhdəsinə götürüb.

***Ağarza Elçinoğlu***

# Zelenski hərbi qələbədən sonra siyasətdən gedəcək

***Ukrayna prezidenti Volodimir Zelenski Rusiya ilə hərbi münaqişədə qələbə qazandıqdan sonra siyasətdən gedəcək.***

"Unikal" xəbər verir ki, bu barədə RBC Ukrayna dövlət başçısının ofisindəki mənbələrə istinadən məlumat yayıb.

Nəşrin həmsöhbəti Zelenskinin Ukraynada keçiriləcək növbəti prezident seçkilərində mümkün iştirakını şərh edib. Onun sözlərinə görə, siyasətçi Rusiya ilə silahlı qarşıdurmada qalib gəldikdən sonra siyasətdən getmək arzusundadır.

Qeyd olunur ki, hazırkı vəziyyətdə Kiyevin mütləq qələbəsi qlobal miqyasda gözlənilməz hadisə olmadan mümkün deyil.

"Və bu, istənilən siyasi hesablamalar üçün çox sarsıntılı bir təməldir", - deyə müəlliflər vurğulayırlar.

***Gülayə Mecid***



# "Putin növbəti sülh sammitinə dəvət oluna bilər" - Zelenski

***Rusiya prezidenti Vladimir Putin növbəti sülh sammitinə dəvət oluna bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna lideri Volodimir Zelenski "Bloomberg"ə açıqlayıb. Dövlət başçısının sözlərinə görə, o, rusiyalı həmkarının yaxın gələcəkdə mümkün danışıqlarda iştirak edəcəyini gözləmir.



Zelenski həmçinin qeyd edib ki, Ukraynadakı münaqişəyə ədalətli son vermək üçün ABŞ və Çin arasında birgə səylər lazımdır. Bu ölkələrin liderləri fikir ayrılıqlarını bir kənara qoysalar, vasitəçi kimi çıxış edə bilərlər. Üstəlik, Pekin müharibəni dayandırmaq üçün Moskvaya təzyiq göstərə bilər.

***Ağarza Elçinoğlu***

# Ərdoğan Azərbaycana səfərini ləğv etdi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyul ayının 6-da Azərbaycan səfəri ləğv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Türkiyə millisinin futbolçusu Merih Dəmiral "AVRO-2024" futbol çempionatının 1/8 final mərhələsində Türkiyə - Avstriya matçında qol vurduqdan sonra əli ilə "Bozqurd" işarəsini göstərib. Bundan sonra "UEFA" Türkiyə milli komandasının futbolçusu ilə bağlı araşdırmaya başlayıb.

Qeyd olunub ki, bu hadisədən sonra Ərdoğan milliyə dəstək vermək məqsədilə Almaniyaya səfər edərək oyunu stadiondan izləyəcək: "Prezident Ərdoğan milliyə dəstək olmaq və onların yanında olduğunu göstərmək üçün iyulun 6-da Azərbaycanda keçiriləcək Türk Dövlətləri Təşkilatının görüşünü ləğv edərək Almaniyaya getməyə qərar verib. Ərdoğan Türkiyə - Hollandiya matçını stadiondan izləyəcək".

Xatırladaq ki, Türkiyə Prezidenti Türk Dövlətləri Təşkilatının Şuşada



keçiriləcək qeyri-rəsmi sammitində iştirak etmək üçün Azərbaycana gəlməyi planlaşdırırdı.

***Ağarza Elçinoğlu***

# "Bayden prezident yarışını tərk edəcək" - Tramp

***"ABŞ-nin hazırkı prezidenti Co Bayden fəlakətli debatdan sonra seçki yarışını tərk edəcək".***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ-nin keçmiş prezidenti Donald Tramp "Washington Post" qəzetinə müsahibəsində deyib.

"O (Co Bayden - red.) seçki yarışını tərk edir... Mən onu oradan çıxartdım. Bu da o deməkdir ki, bizdə Kamala Harris var. Düşünürəm ki, o, daha yaxşı olacaq", - Bayde ifadə edib.

Sorğuya görə, amerikalıların 80%-i ABŞ prezidenti Co Baydeni vəzifədə işləmək üçün çox yaşlı hesab edir. Respondentlərin 56%-i Trampla bağlı eyni fikirdədir.

Eyni zamanda Bayden özü də prezidentlik yarışında qalacağına söz verib.

***Gülayə Mecid***

22_27 IYUI-QARA.qxd 7/4/2024 10:47 PM Page 16



# "Cəbrayıl" klubuna yeni baş məşqçi təyin edildi

***Elhad Nəziri bu ildən Azərbaycan çempionatının I Liqasında mübarəz aparacaq "Cəbrayıl" futbol klubunun yeni baş məşqçisi təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə klubun rəsmi açıqlamasında bildirilib. B kateqoriyalı baş məşqçi ilə, 1 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Elhad Nəziri futbolçu kimi "Qarabağ" , "Lokomotiv", "Milsami"(Moldova)," Petrolul" (Ruminiya)," İnter" (Bakı), "Metralul" (Ruminiya) klublarının fomasını geyinib. Ruminiya kubokunun qalibi və çempionatın bürünc mükafatçısı olub. Gənc çalışdırıcı "Cəbrayıl" ilə Region Liqasının qalibi və II Liqanın gümüş medalçısı olub.




Xatırladaq ki, "Cəbrayıl" futbol klubunun əvvəlki baş məşqçisi Cavid Hüseynov ötən həftə tutduğu vəzifədən istefa verib. Cavid Hüseynovun yeni iş yeri "Turan Tovuz" klubu olacaq. O, burada ikinci məşqçi kimi çalışacaq.

# DÇ-2030-un finalını bu məşhur stadion qəbul edəcək

***2030-cu ildə keçiriləcək futbol üzrə dünya çempionatının final oyununu qəbul edəcək stadion müəyyənləşib.***

QOL.az xəbər verir ki, bu barədə İspaniyanın "Marca" nəşri məlumat yayıb. DÇ-2030 üç ölkənin - İspaniya, Portuqaliya və Mərakeşin birgə təşkilatçılığı ilə keçiriləcək. Qəzetin yazdığına görə, matçları qəbul edəcək arenaların adları bu il iyulun 31-də açıqlanacaq. Amma indidən finalın hansı məkanda oynanılacağı məlumdur.

Bu, "Real"ın Madridin stadionu olan "Santyaqo Bernabeu"dur. Bildirilir ki, "Real"la FİFA arasındakı yaxın münasibətlər də bu seçimdə rol oynayıb. Məlumata görə, İspaniya bu yarış üçün 12-13 stadion təklif edəcək.

DÇ-2030-u qəbul edəcək ölkələr yarışda seçmə mərhələdə iştirak etmədən birbaşa oynayacaq.





# Messi Amerika Kubokunun 1/4 final mərhələsinin oyununu buraxa bilər

***Argentina millisinin futbolçusu Lionel Messi Amerika Kubokunda Ekvadora qarşı keçiriləcək oyunu buraxa bilər.***

"Unikal" xəbər verir ki, bu barədə yığmanın baş məşqçisi Lionel Skaloni bildirib. Onun sözlərinə görə, ulduz oyunçu əzələ zədəsini sağalda bilsə də, 1/4 finalda meydana çıxmaq şansı sual altındadır. Mütəxəssis son qərarı L. Messi ilə danışdıqdan sonra verəcəyini bildirib.

Qeyd edək ki, Argentina-Ekvador oyunu iyulun 5-də baş tutacaq.

# Güləşçilərimizdən üç medal

***Azərbaycanın yunan-Roma güləşçiləri Serbiyanın Novi Sad şəhərində keçirilən U-20 Avropa çempionatının son günündə 3 medal qazanıb.***

İsmayıl Rzayev (82 kq) finalda türkiyəli Alperen Berberlə qarşılaşıb. O, rəqibinə məğlub olaraq gümüş medal qazanıb.

Tural Əhmədov (60 kq) və Ruslan Nurullayev isə üçüncü yer uğrunda görüşlərdə rəqiblərinə qalib gəlməklə bürünc medala sahib çıxıblar.

Qeyd edək ki, daha əvvəl Məhəmməd Şükürzadə (63 kq) bürünc medal qazanmışdı.

# Tedesko istefaya göndərilir?

***Belçika Futbol Federasiyasının idman direktoru Frank Verkauteren millinin baş məşqçisi Domeniko Tedeskonun gələcəyi ilə bağlı sualı cavablandırıb.***

QOL.az xarici KİV-ə istinadən xəbər verir ki, o deyib: "Domeniko 2026-cı ilə qədər müqavilə imzalayıb, ona görə də ayrılmaq barədə heç bir sual yoxdur. Tedesko millidə qalacaq".

Qeyd edək ki, Belçika 1/8 finalda Fransaya 0:1 hesabı ilə uduzub və turnirdə mübarizəni dayandırıb.

# Millimizin üzvü Polşa klubundan ayrıldı

***Azərbaycan millisinin futbolçusu Rahil Məmmədov Polşanın LKS klubundan ayrılıb.***

Bu barədə Lodz komandası rəsmi saytı vasitəsilə məlumat verib. Bildirilib ki, 28 yaşlı oyunçu ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib. Məmmədov LKS-ə bu ilin əvvəlində "Qarabağ"dan keçmişdi.

Qeyd edək ki, Rahil Məmmədov LKS-in heyətində Polşa çempionatında 16 oyun keçirib.



# "Auqsburq" "Bavariya"nın futbolçusunu transfer etdi

***"Bavariya"nın hücumçusu Yusuf Kabadayı "Auqsburq"a transfer olunub.***

20 yaşlı futbolçu ilə 2028-ci ilin yayına kimi müqavilə imzalanıb.

Kabadayı "Bavariya"nın yetirməsidir. Ötən mövsüm türkəsilli almaniyalı forvard "Şalke"də icarə əsasında oynayıb. O, ikinci Bundesliqada 23 matçda 4 qol vurub.

# "Zirə"nin rəqibindən 5 qollu qələbə

***"Zirə"nin Avropa Liqasının birinci təsnifat mərhələsindəki rəqibi "Şerif" növbəti yoxlama oyununa çıxıb.***



QOL.az xəbər verir ki, Tiraspol təmsilçisi Moldovanın digər klubu olan "Floreşti" ilə qarşılaşıb və 5:0 hesabı ilə qalib gəlib.

Xatırladaq ki, "Zirə" ilə "Şerif" arasında ilk oyun iyulun 11-də Moldovada keçiriləcək. Cavab görüşü 1 həftə sonra Bakıda olacaq.

Qeyd edək ki, "Şerif" bundan əvvəl yoxlama matçında "Zimbru"ya 1:0 hesabı ilə məğlub edib.

# NBA-da oynamış basketbolçu "Sabah"da

***Azərbaycanı FIBA Çempionlar Liqasında təmsil edəcək "Sabah" heyətini yeni basketbolçu ilə gücləndirib.***

"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, ölkə çempionu Hassani Qravettlə anlaşıb.ABŞ-dən olan oyunçu ilə 2 illik müqavilə imzalanıb.

O, peşəkar karyerası ərzində 2021/2022 mövsümündə NBA-da çıxış edən "Orlando Mecik"in heyətində 8 matça çıxıb.

Son mövsümü Polşanın "Şlask" klubunda keçirən 27 yaşlı müdafiəçi 40 görüşün iştirakçısı olub.

# Dünya çempionu evində ölü tapıldı



***Gürcüstanın 28 yaşlı yunan-Roma güləşçisi Nuqzari Tsurtsumiya vəfat edib.***

Bu barədə məlumat Gürcüstanın Güləş Federasiyasının "Facebook" səhifəsində dərc edilib. Məlumatda qeyd olunub ki, güləşçi Xobi şəhərindəki evində ölü tapılıb.

Federasiya ölümün səbəbi barədə məlumat verməyib.

# Ronaldo Merih Demirala zəng edib

***Türkiyə yığmasının üzvü Merih Demiral AÇ-2024-ün 1/8 final mərhələsində Avstriyaya 2:1 hesabı ilə qalib gəldikləri oyundan sonra ulduz futbolçu Kriştianu Ronaldonun ona zəng etdiyini bildirib.***

"Qafqazinfo" xəbər verir ki, avstriyalılarla oyunda iki qol vuran müdafiəçi Ronaldonun onu təbrik etdiyini deyib: "Kriştianu Ronaldo zəng etdi və mənə təbriklərini çatdırdı".

Qeyd edək ki, Merih Demiral və Kriştianu Ronaldo 2019/2021-ci illərdə birlikdə "Yuventus"da çıxış ediblər.